RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 254 (8277) ŞƏNBƏ, 16 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# 5 qitə, 70-dən çox ölkə, 500-ə yaxın nümayəndə

## Prezident İlham Əliyev Dünya dini liderlərinin II Sammitində bəşəriyyətə sülh və barış mesajları ünvanladı, ksenofobiya, islamofobiyaya qarşı birgə mübarizəyə çağırdı

**Əsrlər boyu dini dəyərlərə ən yüksək ehtiramın dövlət səviyyəsində nümayiş etdirildiyi nümunəvi məkan kimi tanınan Azərbaycan bu gün də sivilizasiyalar arasında mənəvi körpü rolunu layiqli şəkildə davam etdirir. Bu, multikultural, tolerant dəyərlərlə çıxış edən Azərbaycanın beynəlxalq aləmdə müsbət imicinin formalaşdırılmasında əsas faktorlardan biridir.**

### Azərbaycana verilən dəyər

Bakıda dünyanın nüfuzlu dini liderlərinin iştirak etdiyi sammitlərin, Mədəniyyətlərarası Dialoq üzrə Dünya Forumunun və bir sıra beynəlxalq humanitar tədbirlərin keçirilməsi ilə Azərbaycan dialoqun, tolerantlığın, xalqlar və dövlətlər arasındakı münasibətlərdə qarşılıqlı hörmətin, barışın vacib olduğunu dünyaya bəyan edir. Eyni zamanda sivilizasiyalararası dialoqun intensiv və faydalı xarakter daşımasına fundamental töhfələr verir. Elə noyabrın 14-də Bakıda Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən Dünya dini liderlərinin II Sammitində səslənən fikirlər də bu məqsədlərə xidmət edirdi.

Dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərlərinin iştirak etdikləri sammitdə mühüm məsələlər müzakirə olundu. İkigünlük konfransda "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" mövzuları ətrafında müzakirələr aparıldı. Sonda isə Bakı Bəyannaməsi qəbul olundu.

Əlbəttə ki, Sammitin ölkəmizdə keçirilməsi, ilk növbədə, Azərbaycana verilən yüksək dəyərdir. Bu, həm də Azərbaycanın dinlərarası dialoqun inkişafında önəmli rol oynadığının təsdiqidir.

### Dini və milli dözümlülük, tolerantlıq

Prezident İlham Əliyev də çıxışında bu məsələyə diqqət çəkərək bildirdi ki, əsrlərboyu Azərbaycanda bütün dinlərin, etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir və bu da böyük sərvətdir.

Dövlət başçısı, həmçinin ölkəmizdə uğurlu inkişafın, sabitliyin bərqərar olunması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlərin dayandığını vurğuladı: "Dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir. Biz islam dininə sadiqik. Öz dinimizi təbliğ edirik, eyni zamanda, Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər. Beləliklə, ölkəmizdə çox gözəl ictimai ab-hava vardır".

Cənab İlham Əliyev ali tribunadan dövlətlərə, dini liderlərə bir daha səslənərək son illərdə dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparıldığını, onların gözdən salındığını, bizim üçün yad olan, milli təfəkkürə uyğun olmayan yeni "dəyərlər"in aşılandığını söylədi. Buna görə də dövlətləri, din xadimlərini yetişməkdə olan gənc nəsli bu yad və bəd təsirlərdən qorumağa çağırdı: "Hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir".

Bu gün Azərbaycan, həmçinin multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm ölkəmizdə həm həyat tərzi, həm də dövlət siyasətidir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılıb və bir neçə mötəbər beynəlxalq tədbir keçirilib. Bütün bu tədbirlərin də məqsədi bəllidir - dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə töhfə vermək...

### Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq

Bütün bunlar Azərbaycanın dövlət siyasətinin prioritetləridir. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Ancaq təəssüflər olsun ki, son illərdə dünyada dini, etnik, məzhəb zəminində bir çox xoşagəlməz hallar, yeni münaqişələr, qarşıdurmalar, müharibələr baş verir. Bəzi hallarda isə psevdodini şüarlar altında cinayətlər törədilir. Elə bu səbəbdən də cənab İlham Əliyev dünyanın həm siyasi, həm də dini liderlərinin bu istiqamətdə səylərini birləşdirməyə çağırdı və əmin olduğunu bildirdi ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq.

Ardı 5-ci səh.

# Azərbaycan xalqını Şimali Qafqaz xalqları ilə çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizə bir daha xoş gəlmisiniz demək istəyirəm, sizi yenidən görməyimə şadam. Çox şadam ki, Şimali Qafqaz respublikalarının dini liderləri Azərbaycanda tez-tez qonaq olurlar. Artıq uzun illərdir ki, biz görüşür, söhbət edir, dinlərarası dialoq, təhsil, Qafqazın dini liderlərinin qarşılıqlı əlaqələri ilə bağlı mühüm məsələləri müzakirə edirik. Hesab edirəm ki, bizim görüşlərimiz və fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi üçün çox böyük əhəmiyyət kəsb edir.

Ardı 2-ci səh.




# Ölkəmiz regiondakı əlverişli imkanından səmərəli istifadə edir

## **Prezident İlham ƏLİYEV:** "Bu gün Azərbaycan etibarlı tranzit ölkə kimi öz xidmətlərini göstərir"

**Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm coğrafi mövqeyə malik ölkədir. Başqa sözlə, bu iki marşrutun əsas qovşaq mərkəzidir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan qədim İpək yolunun bərpasında təşəbbüskar ölkə kimi çıxış etdi. Məqsəd bu coğrafi imkandan istifadə edərək dünyanın ən işlək tranzit marşrutlarından birinin Azərbaycandan keçməsinə nail olmaq idi.**

Prezident İlham Əliyev noyabrın 13-də "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətin sədri Cavid Qurbanovu qəbul edərkən ölkədə həyata keçirilən infrastruktur layihələrinin beynəlxalq əhəmiyyət daşıdığını bir daha vurğuladı.

Ardı 5-ci səh.

# İndi "Şahdəniz" qazının yolu Avropayadır



## Yataqdan hasilat getdikcə artır

**"Cənub qaz dəhlizi" Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşən nəhəng layihədir. Bunu təsdiq edən həm də layihənin Məşvərət Şurasının indiyədək keçirilən beş toplantısının hamısına Bakının evsahibliyi etməsidir. Bu, eyni zamanda, Azərbaycanın həyata keçirdiyi layihələrin uğuruna inamın aydın təzahürü, Prezident İlham Əliyevin dünyadakı nüfuzunun, qazandığı hörmət və ehtiramın parlaq ifadəsidir.**

İstər Məşvərət Şurasının toplantılarında, istərsə də digər iclas və müşavirələrdə Prezident İlham Əliyev "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyinin "Şahdəniz" yatağı olduğunu vurğulayıb və bu zəngin yatağın perspektivlərindən söhbət açıb: "Şahdəniz" üzrə kontrakt "Əsrin kontrakt"ından iki il sonra - 1996-cı ildə imzalandı. O vaxt dünya enerji aləmində qaz yataqları o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Bu gün təbii qaz enerji təhlükəsizliyi üçün həlledici məsələdir. Ancaq o vaxt belə deyildi. Ona görə "Şahdəniz" üzrə kontraktın imzalanması da tarixi hadisədir. Bu gün "Şahdəniz" "Cənub qaz dəhlizi"nin əsas resurs bazasıdır. "Şahdəniz" qaz- kondensat yatağı dünyanın ən böyük yataqlarından biridir. "Azəri-Çıraq Günəşli" və "Şahdəniz" yataqları eyni əhəmiyyətə malikdir".

Məhz "Şahdəniz"in sayəsində Azərbaycan dünyada həm də qaz ölkəsi, mavi yanacaq ixracatçısı kimi tanınıb.

"Şahdəniz" qazı SOCAR, GOGC və BOTAŞ şirkətləri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına çatdırılır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çoxsaylı obyektlərinin fəaliyyəti üçün qaz da "Şahdəniz"dən nəql olunur.

Ardı 5-ci səh.

# Xarici ticarət əlaqəsində 4 milyard dollarlıqdan çox müsbət saldo

**2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycan dünyanın 186 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmişdir. 113 ölkəyə məhsul ixrac, 177 ölkədən idxal olunmuşdur.**




Dövlət Statistika Komitəsinin (DSK) bu barədə yaydığı məlumatda bildirilir ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 24 milyard 837,2 milyon, o cümlədən ixracın dəyəri 14 milyard 459,2 milyon, idxalınınkı 10 milyard 378 milyon dollar təşkil etmiş, nəticədə 4 milyard 81,2 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

Ardı 5-ci səh.

# Azərbaycan xalqını Şimali Qafqaz xalqları ilə çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır

*Əvvəli 1-ci səh.*

Əlbəttə ki, bizim görüşlər və sıx qarşılıqlı əlaqələr çox uğurla inkişaf edən və artıq çoxdan bəri strateji tərəfdaşlıq səviyyəsinə çatmış Rusiya-Azərbaycan münasibətlərinin mühüm amilidir.

Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə mənim çoxsaylı görüşlərim bizim dostluq, mehriban qonşuluq əlaqələrimizin daha da möhkəmlənməsində çox mühüm rol oynayır. Bu yaxınlarda - ötən ay mən Rusiya Prezidentinin dəvəti ilə Soçidə "Valday" Diskussiya Klubunun işində iştirak etdim və həmin səfər çərçivəsində Rusiya Prezidenti ilə də görüşümüz oldu. Biz münasibətlərimizin çox geniş gündəliyinə bir daha nəzər saldıq və əlaqələrimizin bütün istiqamətlər üzrə durmadan inkişaf etdiyini bir daha gördük. Əlbəttə, Qafqazda qarşılıqlı fəaliyyət, əməkdaşlıq və dinlərarası dialoq məsələləri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir. Hamıya yaxşı məlumdur ki, Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır. Biz, sadəcə, atalarımızın, babalarımızın ənənələrini davam etdirir, əlaqələrimizi möhkəmlədir, bununla da Qafqazda təhlükəsizliyin, sabitliyin və inkişafın möhkəmlənməsi işinə çox böyük töhfə veririk. Dəfələrlə dediyimiz kimi, Qafqaz vahid orqanizmdir, o elə bir məkandır ki, orada yerli xalqlar əsrlər boyu yaşayır, qurur, yaradırlar, memarlıq abidələri yaradırlar və gələcəyə inamla baxırlar. Əlbəttə, hesab edirəm ki, Qafqazda təhlükəsizliyin daha da möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün Rusiya-Azərbaycan münasibətləri həlledici rol oynayır. Şadam ki, siz bu sammitdə iştirak edirsiniz. Sammit həm də qlobalmiqyaslı hadisədir. Mənim fikrimcə, bu qəbildən olan və bu səviyyədə təmsil olunmuş sammit dünya arenasında nadir hadisədir. Əlbəttə, zatimüqəddəsləri, Moskvanın və Bütün Rusiyanın patriarxı Kirillin iştirakı və onun dünən səslənən çox müdrik kəlamları bu tədbirə xüsusi əhəmiyyət verir. Lakin onu da qeyd etməliyəm ki, Rusiya nümayəndə heyəti 70-ə yaxın ölkədən olan nümayəndə heyətlərinin ən böyüyüdür. Əlbəttə, dünən sammit masası arxasında bizim qardaşlarımızı, Şimali Qafqazın dini liderlərini görmək çox xoş idi. Bu insanlar öz respublikalarında, bütün Qafqazda və Azərbaycanda çox böyük nüfuz sahibləridir. Sizi yaxşı tanıyırlar, sizə hörmət edirlər və biz sizə fəaliyyətinizə görə təşəkkür edirik. Sizin sözləriniz





xalqlarınızın nümayəndələrinin qəlbində əks-səda doğurur. Siz inkişafa, sabitliyə, sülhə və təhlükəsizliyə çağırırsınız. Azərbaycanda biz bunların hamısını çox yüksək qiymətləndiririk. Əlbəttə ki, bizim möhtərəm şeyximiz Allahşükür Paşazadə ilə sizin münasibətləriniz əməkdaşlığımızın çox mühüm amilidir. Dünən biz möhtərəm şeyxə təntənəli şəraitdə bir çox ölkələrin yüksək mükafatlarının, Azərbaycanın ən ali ordeni olan "Heydər Əliyev" ordeninin, digər dövlətlərin ordenlərinin təqdim edilməsinin şahidi olduq. Bu, şeyxin təkcə bizim regionda deyil, həm də dünyada nüfuz sahibi olmasını göstərir. Möhtərəm şeyx bizim böyük sərvətimizdir. O, dünya səviyyəli dini liderdir. Biz həmişə onunla ünsiyyətdə olarkən, o cümlədən dünən də sizin barənizdə, sizin münasibətləriniz barədə də danışdıq. Nə yaxşı ki, münasibətlərin belə formatı yaranıb. Əlbəttə, belə bir gündə mən çox mühüm bir missiyanı yerinə yetirmək istərdim. Bir neçə ay bundan əvvəl mənim fərmanımla İsmayıl Əliyeviç Berdiyev Azərbaycanın yüksək ordeni - "Dostluq" ordeni ilə təltif edilib. Bu orden öz fəaliyyətləri ilə xalqlarımız arasında dostluğun möhkəmlənməsinə töhfə verən xarici ölkə nümayəndələrinə təqdim edilir. Odur ki, bu gün görüşümüzü məhz sizə bu yüksək mükafatı təqdim etməklə başlamaq istərdim.

Prezident İlham Əliyev "Dostluq" ordenini Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyevə təqdim etdi.

**Müfti İsmayıl BERDİYEV** dedi:

- Çox sağ olun, İlham Heydər oğlu. Biz burada özümüzü vətənimizdəki kimi hiss edirik. Bu, Sizin sayənizdə, şeyxülislamın sayəsində belədir. Bu mükafat şəxsən mənə deyil, bizim hamımıza aiddir. Biz hamımız bunu çox gözəl başa düşürük. Lakin biz də nə iş görürüksə, bu, şeyxülislamın sayəsindədir. O bizim ağsaqqalımız, müəllimimizdir. Bizim də 65 yaşımız var, bu, az deyil, lakin o, bizi hələ də öyrədir. Bütün bunlar onun müdrikliyi sayəsindədir.

Sizin atanızın Azərbaycanda gördüyü işlərin bəhrələrini biz burada Sizin timsalınızda görürük. Çox sağ olun. Biz hər dəfə buraya gələndə Azərbaycanda necə dəyişikliklər baş verdiyini görürük. Burada hər yer gözəldir, xaricdə belə şey yoxdur. Bütün bunlar Sizin sayənizdə mümkün olub. Axı mən Bakını sovet dövründə də, Elçibəyin zamanında da görmüşəm. İndi tamamilə başqadır. Siz nə edirsinizsə, Azərbaycan xalqı üçün edirsiniz. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Müfti İsmayıl BERDİYEV:** Mən heç vaxt unutmuram, mənə söyləyiblər ki, biz hamımız Kəbədə, Qara daşın qarşısında dayananda atanız Sizə demişdi: "Heyif ki, anan burada yoxdur". O, bu sözləri nə üçün demişdi? İnsanın əhvalı yaxşı olanda istəyir ki, doğmaları onun yanında olsun. O, buna görə belə demişdi. İnşallah, o, Azərbaycan üçün etdiklərinə görə cənnətdə olacaq. Biz hamımız onunla fəxr edirdik. Sovet dövründə biz fəxr edirdik ki, Sov. İKP MK Siyasi Bürosunda bir müsəlman var. Siz onun yolunu davam etdirirsiniz. Bu işi davam etdirmək üçün Allah Sizə qüvvət və sağlamlıq versin.

**Prezident İlham ƏLİYEV:** Xoş sözlərinizə görə çox sağ olun. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bugünkü Azərbaycan Heydər Əliyevin qəhrəmancasına fəaliyyətinin nəticəsidir. O, Azərbaycanın inkişafı üçün həmişə çox böyük səy göstərirdi. Sovet dövründə, 1969-cu ildə Azərbaycana rəhbərlik edəndə o, cavan idi, 46 yaşı vardı. O, Azərbaycanı inkişaf səviyyəsinə görə SSRİ-də ən axırıncı yerdən ən qabaqcıllar sırasına çıxardı. O vaxt Rusiya Federasiyasından başqa cəmi iki respublika - Azərbaycan və Belarus ümumittifaq xəzinəsinə aldıqlarından çox verirdi. Rusiya Federasiyası sırf şərti mənada müttəfiq respublika idi. O, dövləti və respublikanı yaradan qurum idi. Bütün digər respublikalar dotasiya alırdı. Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan bütün göstəricilər üzrə ən yüksək yerlərə çıxdı - həm sənayedə, həm kənd təsərrüfatında, həm elektronikada, həm infrastrukturda, həm də regionların inkişafında. Təsadüfi deyil ki, bizim xalqımız böyük çətinliklərlə, faciə ilə üzləşəndə insanlar ilk növbədə Heydər Əliyevə müraciət etdilər. Xalqımız 1993-cü ildə onu Azərbaycana rəhbərliyə dəvət etməklə, əslində, bizi fəlakətdən xilas etdi. Mən dünən də, bundan əvvəlki tədbirlərimizdə də demişəm ki, Heydər Əliyevin möhtərəm şeyx ilə dostluğu təkcə onların şəxsi münasibətləri deyildi. Onlar bir-birini çoxdan tanıyırdılar, hələ möhtərəm şeyx gənc yaşlarında Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etməyə başladığı vaxtdan. Biz də çox sıx dostluq münasibətləri saxlayırıq. Düşünürəm ki, bu, bizim uğurlu inkişafımızın rəhnidir.

Əlbəttə, biz hamımız tariximizin qaranlıq dövrünü xatırlayırıq. O vaxt təsadüfi adamlar hərbi çevriliş yolu ilə ölkə rəhbərliyinə gəlmişdi. Hərçənd bunu çevriliş də adlandırmaq çətindir. Ona görə ki, hətta çevriliş etmək üçün cəsarət və ağıl lazımdır. Bu, sadəcə, hakimiyyətsizlik dövrü idi. O vaxt hakimiyyət tam iflasa uğramışdı və hakimiyyətə küçə adamları gəlmişdi.

**Müfti İsmayıl BERDİYEV:** Bu, hakimiyyətin qəsb edilməsi idi.

**Prezident İlham ƏLİYEV:** Bəli, qəsb edilməsi idi. Xalq Cəbhəsində Azərbaycan cəmiyyətinin ən tör-töküntü təbəqəsi toplaşmışdı. Hər bir cəmiyyətdə töküntülər var. Onlar da belə idi. Onlar hakimiyyəti qəsb etdilər. Mahiyyət etibarilə Azərbaycan xalqının çoxəsrlik ənənələrini məhv etdilər. Onlar düşmənçilik, nifrət toxumu səpir, dinlərarası ayrı-seçkiliyi qızışdırır, oğurluqla məşğul olur, tramvay xətlərini kəsirdilər, çünki orada mis vardı, kəsdiklərini qonşu ölkələrə satırdılar. Təsəvvür edin ki, savadsız bir demaqoq müdafiə naziri olmuşdu. Xırda alverlə məşğul olması ilə tanınan bir adam baş nazir olmuşdu. İdarəçilik sahəsində heç bir təcrübəsi olmayan insan ölkəyə başçılıq edirdi. O, hətta kolxoza da rəhbərlik etməmişdi. Hələ onu demirəm ki, parlamentin rəhbəri 11 il kiçik elmi işçi olmuşdu və bu illər ərzində hətta namizədlik dissertasiyasını da müdafiə edə bilməmişdi. Onlar, sadəcə, savadsız adamlar idi. Dövlət katibi isə keçmiş komsomol fəalı, karyerist və qorxaq adam idi. Onun qorxaqlığını bütün Azərbaycan xalqı bu yaxınlarda bir daha gördü. Heç bir xarici dildə danışa bilməyən, hətta Azərbaycan dilində də pis danışan fizika müəllimi xarici işlər naziri olmuşdu. Belə işlər də olub, ümumiyyətlə, o, nə ingilis dilini bilirdi, nə də rus dilini. Ümumiyyətlə, o, diplomatiyanın nə demək olduğunu anlamırdı. O vaxt vəziyyət belə idi. Bax, şeyx bunu yaxşı xatırlayır. Onlar faciəyə, torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsinə, vətəndaş müharibəsinə gətirib çıxardılar. Orada ərazilərimiz işğal olunur, onlar isə öz hakimiyyətini möhkəmlətmək üçün Gəncəni bombalamaq əmri verirdilər. Onların Gəncə aeroportunu, bir çox evləri bombalamasını, insanların həlak olmasını göstərən kadrlar var. Bu canilər vətəndaş müharibəsi təşkil etmişdilər. Burada onları asmaq üçün dar ağacı qurulanda onlar qorxuya düşərək o vaxt Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Heydər Əliyevə müraciət etdilər ki, gəlib onları xilas etsin. Onlar xalqı deyil, özlərini düşünürdülər. Onlar Heydər Əliyevi uzun müddət dilə tutdular, üç dəfə onun üçün təyyarə göndərdilər. O vaxt Heydər Əliyevin yaşı az deyildi, 70 yaşı vardı. O, xalqı fəlakətdən xilas etmək üçün gəldi və bunu etdi. Biz belə yollar keçmişik. Ona görə biz bunların hamısını xatırlayırıq və qiymətləndiririk. Gərək gənc nəsil bunu bilsin. Çünki o vaxt onlar balaca idilər və ya heç doğulmamışdılar. Buna görə də möhtərəm şeyx də, biz də çalışırıq ki, bu həqiqət hamıya məlum olsun və bunu xatırlayanlar unutmasınlar. Çünki yaxşı olana çox tez vərdiş edirlər. Buna görə biz bütün bunları xatırlayırıq və öz müstəqilliyimizin, ləyaqətimizin, öz yolumuzun - inkişaf, əməkdaşlıq, tərəqqi yolunun qədrini bilirik.

Əlbəttə ki, bugünkü görüş, mənim fikrimcə, çox böyük əhəmiyyət kəsb edir. Biz hamımız Qafqazın birliyini, qardaşlığımıza, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığa sadiq olduğumuzu nümayiş etdiririk və inşallah, beləcə irəli gedəcəyik.

**Müfti İsmayıl BERDİYEV:** İnşallah. Sizin Rusiyada çox böyük nüfuzunuz var. Biz Prezidentimiz Vladimir Vladimiroviçin Sizə necə münasibət bəslədiyini görürük, o Sizə hörmətlə yanaşır. O Sizin atanızı tanıyır. Onlar vaxtilə birlikdə işləyiblər. Belə adamlar heç nəyi gözdən qaçırmırlar, onlar hər şeyi bilirlər. Buna görə Sizin bu dostluğunuz bizim üçün çox dəyərlidir. İndi Rusiya artıq dünyada Sovet İttifaqına bənzər böyük dövlətə çevrilib. Onlar dağıtmaq, uçurmaq, tapdalamaq istəyirdilər. Lakin məhz Putin buna imkan vermədi. O, başa düşdü ki, biz birlikdəyik, bizim gücümüz bundadır.

**Prezident İlham ƏLİYEV:** Siz tamamilə haqlısınız. Rusiya Prezidenti ilə məni yaxın, etimada əsaslanan münasibətlər bağlayır. Bu, çox vacibdir. Biz dəqiq başa düşürük ki, sıx qarşılıqlı fəaliyyətimiz, strateji tərəfdaşlığımız bizim üçün, xalqlarımız üçün vacibdir. Bundan əlavə, şəxsi münasibətlər də var. Məhz bu qarşılıqlı etimad səviyyəsi çoxillik, səmimi və həqiqi əməkdaşlıq sayəsində qazanılıb. Bu etimad səviyyəsi bizim hər hansı məsələləri müzakirə etməyimizə və onları həll etməyimizə imkan verir. Mən də Rusiya Prezidentinə böyük hörmət bəsləyirəm. Mən onunla hələ Heydər Əliyev Azərbaycan Prezidenti olduğu dövrdən tanışam. O vaxt Vladimir Vladimiroviç Azərbaycana səfər etmişdi. Ona qədər Sovet İttifaqı dağılandan sonra 10 il ərzində Rusiya Prezidenti Azərbaycana gəlməmişdi. Hərçənd, biz qonşularıq, bizi çox şey bağlayır. Vladimir Vladimiroviç isə Prezident olan kimi atamın dəvətini qəbul etdi, Azərbaycana gəldi və bizə hörmətini göstərdi. Əslində, o vaxt Heydər Əliyevlə o, bizim münasibətlərimizin təməlini qoydu, bu münasibətlər bu gün də davam edir. Ona görə mən bu yolla gedirəm və Rusiya Prezidenti ilə mənim çoxsaylı, məzmunlu görüşlərim bir-birimizə səmimi münasibətin təzahürüdür. Xalqlarımız bunu bilir və görür. Bu, böyük sərvətdir.

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Qüds Sefardi ortodoks baş ravvinini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinin əhəmiyyəti qeyd edildi. Bu tədbirdə dünyanın bir sıra ölkələrindən böyük nümayəndə heyətlərinin, nüfuzlu ictimai və din xadimlərinin iştirakından məmnunluq ifadə olundu.

Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarın dinlərarası dialoq və Azərbaycanla bağlı fikirlərinin önəmi vurğulandı. Şlomo Amar Azərbaycana səfərindən və Dünya dini liderlərinin sammitində iştirakından dərin məmnunluq hissi keçirdiyini bildirərək ölkəmizə və dövlətimizin başçısına xeyir-dualarını çatdırdı.



# Səudiyyə Ərəbistanının mövqeyi yüksək qiymətləndirildi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artması ilə əlaqədar narahatlıq ifadə olundu.

Söhbət zamanı Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus maddi-mədəniyyət və dini abidələri, o cümlədən məscidləri məhv etməsi vurğulandı, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə və işğalçı Ermənistanla diplomatik əlaqə qurmadığına görə Səudiyyə Ərəbistanının mövqeyi yüksək qiymətləndirildi.

## Şamaxı rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Zəlzələ nəticəsində Şamaxı rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Şamaxı Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*

## Ağsu rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Zəlzələ nəticəsində Ağsu rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Ağsu Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*

## S.T.Dadaşovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Sultan Tofiq oğlu Dadaşov 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*

# Prezident İlham ƏLİYEV: "Azərbaycan çoxkonfessiyalı, multietnik ölkədir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul edib.

AZƏRTAC xəbər verir ki, **Rabbi Abraham KUPER** dedi:

- Hesab edirəm ki, sammitin özü heyrətamiz və uğurlu idi. Ümid edirik ki, Azərbaycan lider ölkə olaraq sadəcə danışmaqla yox, çoxkonfessiyalılıq, liderlik nöqteyi-nəzərdən özünün təqdim olunmasında səylərini davam etdirəcək. Biz buraya gələndə özümüzü evimizdəki kimi hiss edirik. Biz bilirik ki, bu, əsasən, Sizin şəxsən rəhbərliyiniz və mərhum atanızın birgə səyləri nəticəsində mümkün olmuşdur.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Prezident İlham Əliyev Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini, soydaşlarımızın öz doğma torpaqlarından qovulduğunu bildirdi.

**Prezident İlham ƏLİYEV** dedi:

- Bütün azərbaycanlılar torpaqlarından qovulmuşdur və bundan sonra ermənilər qeyri-qanuni, saxta referendum təşkil etdilər və heç kim onun nəticələrini tanımır. O vaxtdan bəri onlar bir neçə dəfə saxta referendumlar təşkil etmiş, lakin Minsk qrupunun həmsədr ölkələri olan Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın hökumətləri bunu açıq şəkildə pisləmişdir. Onlar bizim məscidlərimizi dağıtmış, lakin biz erməni kilsəsini bərpa etmişik. Beləliklə, bu, bizim və onların dini abidələrə münasibətimizin göstəricisidir. Azərbaycan çoxkonfessiyalı, multietnik ölkədir, Ermənistan isə monoetnik ölkədir. Bütün digər etnik qrupların nümayəndələri qovulmuşdur. Eşitmişəm ki, Ermənistanda guya yəhudi icmasının rəhbəri var, lakin onun Karapetyan və ya Varapetyan kimi bir adı var. Orada yəhudilər yoxdur, azərbaycanlılar yoxdur.

**Rabbi Abraham KUPER:** Lakin orada antisemitizm var.

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə ki, antisemitizm var. Bilmirəm, sizin bu barədə məlumatınız var, ya yox. Bu ilin oktyabr ayında keçmiş Sovet İttifaqı respublikalarının rəhbərlərinin görüşdüyü Aşqabad şəhərində keçirilən MDB sammiti çərçivəsində mövzulardan biri İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümünün qeyd olunması ilə bağlı idi və mən söz alaraq dedim ki, Azərbaycan və MDB-yə üzv olan digər ölkələr faşizmin pislənməsi ilə bağlı ortaq mövqedən çıxış edirlər. Nasistlərin qəhrəmanlaşdırılması haqqında danışarkən mən dedim, təəssüf ki, bizim bölgədə, MDB məkanında faşistləri tərənnüm edən bir ölkə var. Mən faşistlərə xidmət edən, Ermənistan hökuməti tərəfindən şərəfinə 6 metr hündürlüyündə abidə ucaldılmış Qaregin Ter-Arutunyanın adını çəkdim. O, faşist Almaniyası, müharibə vaxtında "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur" ifadəsini işlədən bir şəxs idi və bu şəxsin müxtəlif millətlərin, o cümlədən yəhudilərin və digər insanların qətlində əli olub. O, Bolqarıstanda gizli şəbəkə yaratmışdı. Casusluq şəbəkəsi yaradılmışdı. O, həbs olunmuş, uzun müddətə azadlıqdan məhrum edilmiş və Vladimir şəhərində həbsxanada vəfat etmişdi. Mən Ermənistanın yeni hökumətini o abidəni sökməyə çağırdım, çünki onu əvvəlki hökumət ucaltmışdı. Yeni hökumət özünü demokratik hökumət kimi göstərir. Beləliklə, bunu göstərin, abidəni sökün. Mənim ittihamlarım ona qarşı deyildi, onun qondarma inqilab nəticəsində devirdiyi sələflərinə qarşı idi və o dedi: Soljenitsın da həbsdə olub və bir çox başqa sovet dissidentləri Vladimir həbsxanasında olublar. Beləliklə, o, faktiki olaraq deyirdi ki, faşist qatil Soljenitsınla eynidir. Bundan daha səfeh bəyanatı təsəvvürə gətirmək mümkün deyil. Bu səbəbdən, əlbəttə ki, biz hər şeyi olduğu kimi deməliyik. Biz bilirik ki, Amerikada, Rusiyada, Fransada, Minsk qrupunun həmsədr ölkələrinin hamısında erməni lobbisi var. Lakin bir həqiqət var. Qələbənin 75-ci ildönümü ərəfəsində biz Yerevanın mərkəzində bu abidənin olmasına necə dözə bilərik?! İndi onlar, - mən mətbuatdan eşitmişəm, - Bolqarıstanda abidə tikməyə çalışırlar. Onlar birini Rusiyanın Armavir şəhərində ucaldıblar. Çox cəsur bir insan gəlib onun üstünə qara boya töküb və indi erməni diasporu ona hücum edir. Onlar faşisti müdafiə edirlər. Ona görə də, əlbəttə ki, biz ümid edirik, dünyadakı yəhudi icmaları bizim səsimizə səs verəcək və Ermənistan hökumətini bu abidəni sökməyə məcbur edəcəklər.

**Rabbi Abraham KUPER:** Xüsusilə, bildiyimiz kimi, yanvarın sonunda Ausşvitzdə onun ildönümü münasibətilə bəlkə də sonuncu toplantı keçiriləcək. Dəqiq desək, keçmiş Sovet İttifaqı ölkələrinin əksər rəhbərləri, onlara bunun baha başa gəlməsinə baxmayaraq, Hitler və silahdaşlarının məğlubiyyətində böyük rol oynamaqları ilə fəxr edirlər. Bu, həmçinin Ermənistanın da digər dövlətlərin sıralarına qoşulmasını təmin etmək üçün münasib vaxtdır. Əfsuslar olsun ki, Avropada tarix yenidən yazılır və nasistlərin silahdaşlarına, kütləvi qırğın törədənlərə abidələr ucaldılır.

**Prezident İlham ƏLİYEV:** Tamamilə doğrudur. Qələbənin 75-ci ildönümü ərəfəsində biz, - mən siyasətçiləri, ictimai xadimləri, dini liderləri, QHT-ləri, medianı nəzərdə tuturam, - səylərimizi birləşdirməliyik. Biz bir mövqedən çıxış etməliyik. Çünki bu, böyük təhlükədir. Bu, təkcə tarixin təhrif olunması demək deyil. Bu, gələcək diskriminasiya üçün zəmin yaratmaqdır.

# Məşhur yumorist Maksim Qalkinin Heydər Əliyev Mərkəzində yaradıcılıq axşamı olub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaradıcılıq axşamına baxıblar





**Noyabrın 15-də Heydər Əliyev Mərkəzində Rusiyanın tanınmış yumoristi, teleaparıcı, şoumen və müğənni Maksim Qalkinin yaradıcılıq axşamı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yaradıcılıq axşamına tamaşa ediblər.

Maksim Qalkin Azərbaycan tamaşaçılarının qarşısına gözəl əhvali-ruhiyyə yaradan mahnı ilə çıxdı. Azərbaycan Respublikasının Prezidentini və birinci xanımı bu zalda salamlamağın onun üçün şərəf olduğunu deyən Maksim Qalkin Bakıya tez-tez gəldiyini, şəhərimizin ildən-ilə daha da gözəlləşdiyini vurğuladı. Azərbaycan dilini sevdiyini qeyd edən şoumenin ana dilimizdə "Azərbaycan dilini öyrənmişəm. Mən Azərbaycan dilində danışıram. Amma nə danışıram, özüm bilmirəm" deməsi gülüş, zarafat dolu bir gecənin başlanğıcından xəbər verirdi.

Maksim Qalkin tamaşaçılar qarşısında "stand up" şousu ilə çıxış etdi. O, Rusiya və Avropanın məşhur sənətkarlarının, o cümlədən



Anna German, Lyudmila Zıkina, Lev Leşşenko, Vladimir Vinokur, Dima Bilan, Valeri Leontyev, Filipp Kirkorov, Valeri Meladze, Toto Kutunyo, Co Dassen və başqa tanınmış ifaçıların mahnılarına parodiyalar təqdim etdi.

Gecənin maraqlı məqamlarından biri isə Maksim Qalkinin dünya şöhrətli müğənni və bəstəkar Müslüm Maqomayevin repertuarından "Mavi əbədilik" mahnısını ifa etməsi oldu. Dünya şöhrətli sənətkar Alla Puqaçovanın repertuarından "Arlekino" mahnısını oxumasını da tamaşaçılar alqışlarla qarşıladılar.

Maksim Qalkinin təqdim etdiyi proqramlar özündə parodiya, mahnı, yumor, məşhur televiziya şoularından konsert nömrələrini birləşdirir. O, auditoriyanı hiss edir və tamaşaçıları ilə şou boyu ünsiyyət qurur. Bu axşam da istisna olmadı.

Gecənin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Maksim Qalkinlə görüşdülər.

İki saat davam edən gecədə tamaşaçı gülüşünün, sevinc əhvali-ruhiyyəsinin ardı-arası kəsilmirdi. Yaradıcılıq axşamı hər kəsə xoş əhvali-ruhiyyə bəxş etdi.

Qeyd edək ki, Maksim Qalkinin artistlik debütü 1994-cü ildə Moskva Dövlət Universitetinin Tələbə Teatrında olub. Həmin il o, həmçinin Estrada Teatrında "Debütlər, debütlər, debütlər" proqramında çıxış edib. O vaxtdan artistlik karyerasına uğurla davam edən Maksim Qalkin 2001-ci ildə Rusiyada "Triumf" və "Qızıl Ostap" mükafatlarını alıb. Həmin il "Vitebskdə Slavyan bazarı" festivalında ilk solo konsertini verib. O vaxtdan solo çıxışları mütəmadi xarakter alıb. 2001-ci ilin oktyabrında özünü yeni ampluada - mahnı ifaçılığında sınayıb. Onun ilk vokal təcrübəsi Rusiya estradasının əfsanəsi Alla Puqaçova ilə birlikdə oxuduğu "Bud ili ne bud" (Будь или не будь) mahnısı olub. Maksim Qalkin həmçinin bir sıra televiziya proqramlarının aparıcısı kimi məşhurlaşıb. Onun səhnə çıxışları anşlaqla keçir, telelayihələrdə iştirakı isə yüksək reytinqi təmin edir.

Maksim Qalkinin indiyədək Bakıda verdiyi konsertlərin hər biri tamamilə yeni və fərqli olub.

# Azərbaycan və ABŞ ştatlarının qanunverici orqanları arasında əlaqələrin inkişafı məsələləri müzakirə edilib

Noyabrın 15-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov ABŞ-ın Montana ştatı senatının sədri Raymond Skot Seylsin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Spiker qonaqların Dünya dini liderlərinin II Bakı Sammitində iştirakını yüksək dəyərləndirib. Qeyd edib ki, dünyada multikulturalizm mərkəzlərindən birinə çevrilmiş Azərbaycan tolerant ölkə kimi tanınır.

Milli Məclisin Sədri ümidvar olduğunu bildirib ki, səfər müddətində qonaqların Azərbaycanın tarixi, iqtisadiyyatı, mədəniyyəti, multikulturalizm mühiti, uğurlu neft strategiyası, regionda həyata keçirilən böyük strateji layihələr, ölkəmizin üzləşdiyi çətinliklər və qonşu Ermənistanın silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğal olunması barədə əldə edəcəkləri məlumatlar onların respublikamız barədə biliklərinin daha da zənginləşməsinə töhfə verəcək.

Ölkəmizin təkcə federal səviyyədə deyil, ABŞ-ın ştatları ilə də münasibətlərin inkişafına böyük maraq göstərdiyini bildirən Oqtay Əsədov deyib: "Biz əməkdaşlığımızın bu formatını gələcəkdə də dərinləşdirmək niyyətindəyik. Hesab edirik ki, bu səfəriniz təmsil etdiyiniz ştatlarla Azərbaycan arasında əlaqələrin genişlənməsinə təkan verəcək".

Azərbaycan-ABŞ münasibətlərinin dərin tarixi köklərinin olduğunu vurğulayan Milli Məclisin Sədri bu əlaqələrin hələ XX əsrin əvvəllərindən inkişaf etməyə başladığını qeyd edərək deyib: "Bu gün Azərbaycan ilə ABŞ arasındakı münasibətlər öz dinamikliyi ilə fərqlənir. ABŞ Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdəndir. Diplomatik münasibətlərimizin 28 illik tarixi vardır. O zamandan bəri ölkələrimiz arasında əlaqələr daim inkişaf edir və genişlənir. Bunu qarşılıqlı olaraq həyata keçirilən səfərlərin sayına nəzər saldıqda da görmək olar. Ümumiyyətlə, son illər ABŞ-dan ölkəmizə müxtəlif səviyyələrdə səfərlərin həyata keçirilməsi ənənəvi hal alıb.

Ölkələrimiz arasında mövcud olan fəal siyasi dialoq iqtisadi sahəyə də öz təsirini göstərir. Bugünədək ABŞ şirkətləri tərəfindən Azərbaycan iqtisadiyyatına 14 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb. Ölkəmiz qlobal neft və qaz layihələrinin reallaşmasında həmişə ABŞ-ın dəstəyini hiss edib. Biz ABŞ-la mədəni-humanitar əlaqələrimizi də inkişaf etdirməkdə maraqlıyıq".

Parlament diplomatiyasının önəmini vurğulayan Oqtay Əsədov Milli Məclisdə və ABŞ Konqresində dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Hər iki ölkənin qanunverici orqanları arasında uğurlu əməkdaşlıqdan, qarşılıqlı səfərlərin əhəmiyyətindən söz açan spiker ABŞ ştatlarının qanunverici orqanları ilə əlaqələrimizin dərinləşməsini vacib hesab etdiklərini bildirib.

Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Milli Məclisin Sədri Azərbaycanın problemin beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdar olduğunu vurğulayıb. Qeyd edilib ki, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ problemin həllinə öz töhfəsini verə bilər. Spiker ABŞ-ın 20-dən çox ştatının Xocalı soyqırımına münasibət bildirdiyini qeyd edərək, digər ştatlar tərəfindən də müvafiq addımların atılacağına inandığını bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Raymond Skot Seyls Dünya dini liderlərinin II Sammitində iştirak etmək üçün ölkəmizdə səfərdə olduqlarını söyləyib. Qonaq səfər çərçivəsində keçirdikləri görüşlərdən və xalqımızın qonaqpərvərliyindən məmnun qaldıqlarını deyib. Bildirib ki, səfərdə iştirak edən nümayəndə heyətinin tərkibində ABŞ-ın dörd ştatının təmsilçiləri olub. Səfər Azərbaycanın mədəniyyəti, tarixi, keçdiyi inkişaf yolu, qarşılaşdığı problemlərlə yaxından tanış olmaq üçün yaxşı imkanlar yaradır.

Montana Ştatı Senatının Sədri Milli Məclislə ABŞ ştatlarının qanunverici orqanları arasında əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd edib. Vurğulayıb ki, təkcə federal səviyyədə deyil, ştatlar səviyyəsində də Cənubi Qafqazın bu bölgəsi ilə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına böyük maraq var.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

***AZƏRTAC***

***Foto F.BAĞIROVUNDUR***

# Bakıda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun şərəfinə ucaldılan heykəlin açılışı olub

Noyabrın 15-də Bakıda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun şərəfinə ucaldılan heykəlin açılışı olub.



AZƏRTAC xəbər verir ki, Milli Qəhrəmanın adını daşıyan küçədə ucaldılan heykəlin açılış mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunmuş bir sıra xarici ölkə səfirliklərinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun həyat yolu hər bir gənc üçün örnəkdir və onun xatirəsi Azərbaycanı sevən insanların qəlbində daim yaşayacaq. Şöbə müdiri Azərbaycandakı tolerant və multikultural mühitin tarixən müxtəlif xalqların buraya gəlib məskunlaşmasında mühüm rol oynadığını bildirib. Qeyd edib ki, Azərbaycanda digər yerlərdən fərqli olaraq, antisemitizmin olmaması onların burada yaşamasını təmin edib. Yəhudi xalqı tarixən Azərbaycan xalqının həyatında yaxından iştirak edib. Onlardan biri də Albert Aqarunov olub. O, Şuşanın müdafiəsi zamanı qəhrəmancasına həlak olub. Onun vətən sevgisi təsadüfi olmayıb, bu, ilk növbədə Azərbaycan xalqının multikulturalizm mədəniyyətindən irəli gəlir. Albert Aqarunovun adı Azərbaycan dövləti tərəfindən əbədiləşdirilib. Onun heykəlinin açılışı bu diqqətin daha bir təzahürüdür.

Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev çıxış edərək bildirib ki, Albert Aqarunov qısa, lakin dəyərli ömür yaşayıb. O deyib ki, Albert hər gün ölümün üzünə dik baxıb. Bunun özü bir şücaətdir. Albertin harada doğulması, hansı milliyyətə mənsub olması önəmli deyil.

Nazir müavini qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların xatirəsi, onların ailə üzvləri və qazilər daim Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqətindədir. Bugünkü tədbir də bunun əyani sübutudur. "Abidənin açılışında zəhməti olan hər kəsə Müdafiə Nazirliyinin rəhbərliyi və Azərbaycan Ordusunun şəxsi heyəti adından təşəkkür edirəm. Albert Aqarunovun və vətən uğrunda şəhid olmuş digər insanların xatirələri qəlbimizdə əbədi yaşayacaq. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş Azərbaycan Ordusu dövlət başçısının qarşımızda qoyduğu istənilən tapşırığı icra etməyə qadir və hazırdır", - deyə o, əlavə edib.

Açılış mərasimində iştirak etmək üçün İsraildən Bakıya gələn Milli Qəhrəmanın qardaşı Rantik Aqarunov qardaşını unutmadıqlarına görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığını bildirib.

Sonra abidənin önünə əklil və gül dəstələri düzülüb.

Albert Aqarunovun heykəlinin müəllifləri heykəltəraşlar Rahib Qarayev və Zamik Rzayevdir.

Qeyd edək ki, Albert Aqarunov 1969-cu il aprelin 25-də Bakının Əmircan qəsəbəsində anadan olub. Suraxanı rayonundakı 154 saylı məktəbin səkkizinci sinfini bitirərək peşə məktəbində sürücü-mexanik ixtisasına yiyələnib. 1987-ci ildə isə hərbi xidmətə çağırılıb və xidməti dövründə tank komandiri olub. Daha sonra Bakıya dönərək Suraxanıdakı maşınqayırma zavodunda işləyib. Qarabağ müharibəsi başlayarkən 1992-ci ildə Albert könüllü olaraq cəbhəyə yollanıb. Tank komandiri təyin edilən Albert Şuşa cəbhəsində döyüşüb. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib. Ermənilərin Şuşaya hücumu vaxtı Albert Aqarunov düşmənin 9 tankını, 7 ZTR-ni və bir çox texnikasını məhv edib. Buna görə döyüş yoldaşları tərəfindən "Yəhudi buterbrodu" adını alan Albert 1992-ci il mayın 8-də Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gələrək döyüş meydanında həlak olub.

# Dünya dini liderlərinin II Bakı Sammiti plenar iclasla işini davam etdirib



Noyabrın 15-də Dünya dini liderlərinin II Bakı Sammiti növbəti plenar iclasla işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentinin sədri Xaled Akaşenin moderatorluğu ilə keçirilən iclasda çıxış edən Əlcəzairin Ali Dini Şurasının sədri Bouabdellah Qlamallah dünya dini liderlərinə yaratdığı bu cür imkana görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib. Qeyd edib ki, bu gün əsas mövzulardan biri də Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi və şeyxülislamlıq fəaliyyətinin 40 illiyi ilə bağlıdır.

Bouabdellah Qlamallah bildirib ki, insanlar ən qədim zamanlardan müxtəlif dinlərə mənsub olublar. Bu mənsubiyyət fikir ayrılığına gətirib çıxarmamalıdır. Birgəyaşayış, dözümlülük, qarşılıqlı anlaşma çox önəmlidir.

Yaponiyada fəaliyyət göstərən Zen Buddizm məktəbinin nümayəndəsi Azuma Aruşin Azərbaycana ilk dəfə 2017-ci ildə gəldiyini bildirib. Qonaq belə bir maraqlı görüşdə iştirak etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O, islam dini ilə bağlı elmi məqalələr yazdığını diqqətə çatdırıb. Azuma Aruşin dinlərarası dialoqun əhəmiyyətini vurğulayıb. Fələstinin nümayəndəsi Mahmud Sidqi Alhabaş Bakı Sammitinin əhəmiyyətindən danışaraq vurğulayıb ki, buradakı çıxışların hər biri dialoqa səsləyir. Ona görə də bu sammitdə səslənən fikirlərə ciddi diqqət yetirilməlidir.

Mardin-Diyarbəkir mitropoliti Saliba Özmen qeyd edib ki, dünyada sabitliyin bərpası çox önəmlidir. Bakı Sammitində dünyada sülhün, sabitliyin möhkəmlənməsi ilə bağlı vacib çağırışlar edilir və bu, böyük əhəmiyyətə malikdir.

Yepiskop Louka əl-Khouri Şeyxülislam Allahşükür Paşazadəni 70 illik yubileyi münasibətilə təbrik edib. O, həmçinin bu cür mötəbər tədbirin keçirilməsi təşəbbüsünə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. "Sammitin digər beynəlxalq tədbirlərdən fərqi odur ki, bu tədbir dinlər və sivilizasiyalar arasında sülhün möhkəmlənməsinə xidmət edir", - deyə o, əlavə edib.

Seneqal Prezidentinin dini işlər üzrə müşaviri Mənsur Niass dünya xalqlarına sülh, əmin-amanlıq arzularını çatdırıb. O qeyd edib ki, islam dini dünya xalqlarını dostluğa və qardaşlığa dəvət edir. Sülh, sabitlik gələcək nəsillərin sağlam təfəkkürdə yetişməsinə təsir edən amildir.

Avropa Ravvinlər Konqresi İcra Komitəsinin üzvü İzhaq Dayan qeyd edib ki, Yer üzündə yaşayan bütün insanları bir ailənin üzvləri hesab etmək olar. Fikirlər fərqli ola bilər, lakin bu, insanlar arasında münaqişəyə səbəb olmamalıdır. KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Direktorlar Şurasının üzvü Məhəmməd əl-Şammak bildirib ki, Bakı Sammiti dialoq, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təbliği üçün yaxşı platformadır. Biz bu imkandan istifadə etməliyik.

Özbəkistan müftisi Osman xan Alimov özbək və Azərbaycan xalqları arasındakı dostluq və qardaşlıq münasibətlərindən danışıb. O, həmçinin hər iki ölkənin din xadimlərinin əməkdaşlığını qeyd edib.

İndoneziya Üləmalar Şurası Məşvərət Şurasının başçısı Məhəmməd Syamsəddin qeyd edib ki, Bakıda təşkil edilən bu sammit dünya ictimaiyyəti üçün mühüm dialoq platformasıdır. Sammitdə dünyanın müxtəlif dini liderləri müzakirələr aparmaq imkanı qazanıblar.

Mərmərə Qrupu Vəqfinin sədri Akkan Suver Dünya dini liderlərinin II Sammitində bu cür önəmli müzakirələrin aparılması üçün yaradılan şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib. O qeyd edib ki, bu gün fərqli dinlərə və millətlərə mənsub olan insanlar bir araya gələrək müzakirələr aparırlar. Bu, çox böyük əhəmiyyətə malikdir. Azərbaycan dövləti növbəti dəfə öz multikulturalizm siyasətini nümayiş etdirdi.

Plenar iclas müzakirələrlə davam edib.

# Dünya dini liderlərinin II Bakı Sammitinin yekunlarına dair mətbuat konfransı keçirilib

Noyabrın 15-də Dünya dini liderlərinin II Bakı Sammitinin yekunlarına dair mətbuat konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, sammitin təşkilat komitəsinin sədri Əli Əhmədov dini liderlərin bir araya gəlməsinin heç də asan olmadığını bildirib. "Lakin Azərbaycanda formalaşmış tolerantlıq mühiti ölkəmizi elə bir məkana çevirib ki, burada fərqli dinlərin nümayəndələrinin bir araya gəlməsi mümkün olub", - deyə o, əlavə edib.

Əli Əhmədov bildirib ki, iki gün ərzində sammitdə çox dəyərli fikirlər səsləndirildi. Prezident İlham Əliyevin tədbirdəki nitqi kifayət qədər diqqətçəkən məqamlarla yadda qaldı. Müasir cəmiyyətimizi düşündürən elə məsələlər var ki, bu məsələlər yalnız dialoq yolu ilə həll oluna bilər. Dini zəmində baş verən problemlərin həllində dini liderlərin üzərinə böyük vəzifələr düşür. Dini rəhbərlərin mənəvi nüfuzu bu baxımdan ən əsas resurslardan biridir. Müasir dünyada dini rəhbərlərin cəmiyyətdə birləşdirici rolunun artırılmasına ehtiyac var.

Sammitin böyük uğurla başa çatdığını vurğulayan Baş Nazirin müavini əmin olduğunu bildirib ki, tədbir ölkəmizdə dinlərarası anlaşmaya öz töhfəsini verəcək. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib ki, bu sammitin əhəmiyyəti zaman keçdikcə özünü daha çox göstərəcək. Bu tədbir Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın dəstəyi ilə keçirildi. "Buna görə də dövlətimizin başçısına və birinci xanıma bütün din xadimləri adından təşəkkür edirəm. Müasir dünyada bu kimi tədbirlərə böyük ehtiyac var", - deyə Allahşükür Paşazadə qeyd edib.

# *Ravvin Eli ABADİ:* "Azərbaycan dünyada multikulturalizm və dinlərarası əməkdaşlıq diyarı kimi tanınır"

Azərbaycanın dünyada multikulturalizm, tolerantlıq və dinlərarası əməkdaşlıq diyarı olduğunu nəzərə alsaq, burada Dünya dini liderlərinin II Sammitinin keçirilməsi heç də təsadüfi deyil.



Müxtəlif ölkələrin din xadimlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin, dini konfessiya və təriqət liderlərinin bir araya gələrək sülh, qardaşlıq və insanlıq naminə birgə səylər göstərməsi sevindirici haldır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinin iştirakçısı, amerikalı ravvin Eli Abadi jurnalistlərə müsahibəsində deyib.

O, qeyd edib ki, dini radikalizm, fanatizm və ekstremizm kimi ideyaların geniş yayıldığı bir dövrdə belə sammitlər dinlər, xalqlar və ölkələr arasında əməkdaşlığın inkişaf etməsinə töhfə verəcək. Bu da öz növbəsində dünyada sülhün, əmin-amanlığın və sabitliyin təmin olunduğu bir gələcəyə aparan yoldur. Mən dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə töhfə vermək məqsədi daşıyan bu tədbirin iştirakçısı olmaqdan çox məmnunam.

"Multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti olduğu Azərbaycanın belə bir tədbirə evsahibliyi etdiyinə, həmçinin müxtəlif dinlərin nümayəndələrinin sülh şəraitində yaşaması, dini tolerantlıq və dinlərarası əməkdaşlığın inkişafı istiqamətində göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm", - deyə Eli Abadi diqqətə çatdırıb.

# Dünya dini liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul olunub




Dünya dini liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul edilib.

AZƏRTAC xəbər verir ki, bəyannamədə Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyi vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin II Bakı Sammitinin və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubiley tədbirlərinin keçirilməsi barədə qərarları, habelə II Bakı Sammitində iştirakı və dərin məzmunlu çıxışı yüksək dəyərləndirilib.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin əhəmiyyəti, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələri qeyd edilib.

Dünya dini liderlərinin II Bakı Sammitinin yüksək səviyyədə təşkili, habelə müxtəlif mədəniyyətlərin və dinlərin daşıyıcılarının, dövlət, ictimaiyyət və elm xadimlərinin görüşləri və fikir mübadilələrinin aparılması üçün yaradılan şəraitə görə tədbirin təşkilat komitəsinə minnətdarlıq bildirilib.

Zati-müqəddəsləri Moskva və Bütün Rusiya patriarxı Kirillin sivilizasiyalararası və dinlərarası əməkdaşlığa töhfələri, bölgədə və beynəlxalq miqyasda sülhün və əmin-amanlığın qorunmasında, eləcə də qarşılıqlı etimad mühitinin yaradılmasında önəmli rolu qeyd olunub.

Zati-müqəddəsləri Roma Papası Fransiskin 2016-cı il noyabrın 2-də Azərbaycana apostol səfəri zamanı Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa verdiyi dəyər yüksək qiymətləndirilib. Habelə Papa Fransisk və əl-Əzhərin baş imamı Şeyx Əhməd əl-Tayyib həzrətləri tərəfindən 2019-cu il fevralın 4-də Əbu-Dabidə imzalanmış "İnsani qardaşlıq, dünyada sülh və birgəyaşayış" Birgə Sənədi alqışlanıb.

Zati-müqəddəsləri Bütün Gürcüstan katolikos-patriarxı II İlyanın Qafqaz regionunun ənənəvi tolerantlıq mühitinin qorunmasında, bölgədə sülhə və əmin-amanlığa nail olunmasında və dinlərarası anlaşmanın bu məqsədlər naminə dərinləşməsində müstəsna xidmətləri vurğulanıb.

Qafqaz və ona qonşu olan bölgələrin, Mərkəzi Asiya ölkələrinin dini liderlərinin dinlərarası və məzhəblərarası əməkdaşlığın inkişafına və mənəvi dəyərlərin qorunmasına verdikləri töhfələr qeyd edilib.

Dünyanın müxtəlif regionlarını təmsil edən xristian, müsəlman, yəhudi, buddist, induist və digər dini birliklərin rəhbərləri və dini konfessiya təmsilçilərinin müasir dünyanı təhdid edən problemlərə dair birgə mövqeyinin bildirilməsi, o cümlədən dinlərarası və sivilizasiyalararası həmrəyliyin vacibliyinin bütün dünyaya nümayiş etdirilməsi məqsədilə belə tədbirlərin davamlı əsaslarda təşkil olunmasının əhəmiyyəti vurğulanıb.

Dünya dini liderlərinin II Bakı Sammitində irəli sürülən, Azərbaycan tərəfinin 2020-ci ildə Bakıda "Media və sosial şəbəkələrdə nifrətə çağırışlara qarşı mübarizədə dini liderlərin və siyasi xadimlərin birgə fəaliyyəti" mövzusunda BMT, KAICIID və Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin həmtəşkilatçılığı ilə beynəlxalq konfransın keçirilməsi təşəbbüsü alqışlanıb.

Dünya dini liderlərinin sülh, əmin-amanlıq və humanizm ideyalarına xidmət edən dövlət və ictimaiyyət institutları, habelə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığının vacibliyi qeyd edilib.

2018-ci ilin 25 iyun tarixində BMT-nin Cenevrədəki Ofisində "Dinlər, inanclar və dəyər sistemləri: bərabər vətəndaşlıq hüquqları" mövzusunda keçirilmiş ümumdünya konfransında qəbul olunmuş və BMT Baş katibi tərəfindən təsdiq edilmiş bəyannamə alqışlanıb.

Qarşılıqlı etimad və anlaşma mühitində mədəni müxtəlifliyin, sivilizasiyalararası və dinlərarası əməkdaşlığın təşviq edilməsinin sülhə, təhlükəsizliyə və bəşəri həmrəyliyə töhfə olduğu vurğulanıb və bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edilib.

Dünyada terrorizmin, müxtəlif zəminlərdə ayrı-seçkiliyin, ksenofobiyanın, dini və etnik zəmində dözümsüzlüyün artması, terrorçu və ekstremist qruplaşmalar tərəfindən dini dəyərlərin məqsədyönlü təhrif olunması, mədəni, dini və tarixi irsin dağıdılması, eləcə də qaçqınların, məcburi köçkünlərin və miqrantların humanitar fəlakət həddinə çatmış kütləvi axını nəticəsində dünyada sülhün, qlobal dialoqun və bəşəri həmrəyliyin bərqərar olmaması ilə bağlı dərin narahatlıq ifadə edilib.

Silahlı münaqişələr, terror aktları, dini və etnik zəmində baş verən zorakılıqların insan tələfatı ilə yanaşı, mədəni və dini irsin talan və məhv edilməsi ilə nəticələndiyindən və bu xüsusda dünya mədəni və mənəvi irsinə aid olan, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərində mədəni və dini abidələrin dağıdılmasından dərin narahatlıq ifadə olunub.

Özündə bəşəri dəyərləri ehtiva edən dinlərin dünya sivilizasiyasına, mədəniyyətinə və mənəvi irsinə əhəmiyyətli töhfə verdikləri, humanizmin təşviq edilməsinə, sülhün və ədalətin təmin olunmasına xidmət etdikləri xüsusi vurğulanıb.

Dayanıqlı tərəqqiyə, sabitliyə və təhlükəsizliyə əsas maneə olan silahlı münaqişələrin həllinə, eləcə də aqressiv təbliğatlara, etnik və dini zəmində yaranan münaqişələrin təhrik olunmasına qarşı mübarizə sahəsində beynəlxalq birlik tərəfindən səylərin gücləndirilməsinə olan zərurət bildirilib. Bəyannamədə dövlətlər, Birləşmiş Millətlər Təşkilatı, digər beynəlxalq və regional və ictimai təşkilatlar, dini liderlər sivilizasiyalararası və dinlərarası qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviq edilməsini və gücləndirilməsini davam etdirməyə, terrorizmin və insaniyyətə qarşı cinayətlərin din adı ilə bağlanması, ayrı-seçkiliyə, ksenofobiya, islamofobiya, antisemitizm, xristianofobiya zəminində törədilən terror aktları və digər xüsusilə ağır cinayətlərin qarşısının alınması üçün təsirli tədbirlər görməyə, din adından törədilən hər hansı terror aktını bütün dinlərə qarşı törədilmiş terror aktı kimi qiymətləndirməyə, terrorçuların öz məkrli niyyətləri naminə dinlərin müqəddəs dəyərlərindən istifadə etməsi cəhdlərinin qarşısının alınmasına çağırılıb.

Həmçinin dini dəyərlər rəhbər tutulmaqla yanaşı, dini ayinlərin aidiyyəti dini məkanların yerləşdiyi ölkələrin dövlət siyasəti və milli qanunvericiliyinə tam riayət etməklə yerinə yetirilməsinin təmin olunmasına, media, rabitə və informasiya texnologiyaları vasitəsilə irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və təbliğatların, nifrətə çağırışların qarşısının alınmasında əməkdaşlığın artırılmasına, gənclərin bu sahədə maarifləndirilməsinin təşviq edilməsinə, BMT-nin mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı yönəlmiş təhdid və təhlükələrin qarşısının alınması üçün birgə səylərin artırılmasına və qlobal dialoqun gücləndirilməsinə, silahlı münaqişə, təqib və zorakılıq nəticəsində əziyyət çəkmiş qaçqınlar, məcburi köçkünlər və miqrantların problemlərinin həllinə, onların pozulmuş hüquqlarının bərpa olunmasına, eləcə də bu cür vəziyyətlərin yaranmasına gətirib çıxaran amillərin aradan qaldırılmasına səy göstərilməsinə çağırış öz əksini tapıb.

Bundan başqa, bəyannamədə bütün dinlərin müqəddəs ibadətgahlarında, o cümlədən səmavi dinlərin müqəddəs məkanı olan Qüdsdə təxribatların və zorakılıq hallarının qarşısının alınmasında əməli səy göstərməyə, BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət edilməsinə və bu prinsiplərə riayət olunmasının beynəlxalq ictimaiyyət və yerli cəmiyyət daxilində təşviq edilməsinə, dünyanın bir çox bölgələrində, o cümlədən Yaxın Şərqdə davam edən münaqişələrin, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yuxarıda göstərilən prinsiplərə tam uyğun olaraq sülh yolu ilə həll olunmasına töhfə verməyə, UNESKO-nun Nizamnaməsinə istinadən, dini, mədəni və etnik müxtəlifliyin qəbul olunması və buna hörmətlə yanaşılmasının təşviq edilməsinə, habelə dini və mədəni irsin qorunmasına, İnsan Hüquqları haqqında Ümumi Bəyannamə və BMT-nin Uşaq Hüquqları Konvensiyasına riayət etməyə, insan hüquqları, o cümlədən qadın və uşaq hüquqlarının təşviqi və müdafiəsi sahəsində din, elm və ictimaiyyət xadimlərinin birgə fəaliyyətini dəstəkləməyə çağırış yer alıb.

# *Stanislav ZVOLENSKİ:* "Bakı Sammiti müxtəlif dinlər və təriqətlər arasında dialoqun və əməkdaşlığın inkişafına töhfə verəcək"

Dünya dini liderlərinin II Bakı Sammiti çox yüksək səviyyədə təşkil olunub və inanıram ki, bu tədbir müxtəlif dinlər və təriqətlər arasında dialoqun və əməkdaşlığın inkişafına töhfə verəcək.



AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda Dünya dini liderlərinin II Sammitində iştirak edən Bratislava arxiyepiskopu Stanislav Zvolenski jurnalistlərə müsahibəsində deyib.

Stanislav Zvolenski bildirib ki, Azərbaycan dinlərarası dialoq sahəsində belə mötəbər tədbirlərin keçirilməsi baxımından nümunəvi ölkədir. Çünki burada müxtəlif xalqların, dinlərin nümayəndələri arasında multikultural və tolerant mühit mövcuddur.

O, Dünya dini liderlərinin II Sammiti kimi qlobal miqyaslı dinlərarası dialoq tədbirində iştirak etməkdən məmnun olduğunu qeyd edib.

# 5 qitə, 70-dən çox ölkə, 500-ə yaxın nümayəndə

## Prezident İlham Əliyev Dünya dini liderlərinin II Sammitində bəşəriyyətə sülh və barış mesajları ünvanladı, ksenofobiya, islamofobiyaya qarşı birgə mübarizəyə çağırdı

*Əvvəli 1-ci səh.*

Dövlət başçısının söylədiyi kimi, Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq: "Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır".

Azərbaycanın qlobal müstəvidə dinlərarası dialoqun inkişafına öz töhfəsini vermək məramı ilə evsahibliyi etdiyi Dünya dini liderlərinin II Bakı Sammiti Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamıdır.

### Beynəlxalq Tolerantlıq Günü ərəfəsində əlamətdar hadisə

İkigünlük Sammitdə müxtəlif mövzular ətrafında müzakirələr aparıldı və yekunda Bakı Bəyannaməsi qəbul olundu. Sammitdə iştirak edən dünyanın dini liderləri vurğuladılar ki, Prezident İlham Əliyevin apardığı bu humanist siyasətlə Azərbaycan son on il ərzində dinlərarası, millətlərarası münasibətlərdə artıq dünya üçün bir örnək olmaqdadır. Çıxışlarda, həmçinin terrorizmin bütün təzahürlərini pisləyərək gənclərə din haqqında məlumatların daha dolğun çatdırılmasının əhəmiyyətini vurğuladılar, mədəni müxtəlifliyin qorunub saxlanılmasının vacibliyini qeyd etdilər.

Azərbaycanın ksenofobiya, ifratçılıq və ekstremizmin bütün formaları ilə mübarizə aparmaq üçün dünyanın müxtəlif dövlətlərindən dini rəhbərləri bir araya toplamaq işində nümunəvi təcrübəyə malik ölkə olduğu vurğulandı və qeyd edildi ki, Prezident İlham Əliyev bu gün bir çox cəmiyyətlər üçün siyasi xadim kimi çox yaxşı nümunə və yaxşı örnəkdir. Cənab İlham Əliyev təkcə ölkə daxilində deyil, eləcə də regionda, dünya miqyasında qarşılıqlı hörmətin, sülh şəraitində birgəyaşayışın və səmərəli əməkdaşlığın güclənməsi üçün çox dəyərli iş görür. Dini liderlərin II Sammiti də dediklərimizin sübutudur.

Məhz 16 noyabr - Beynəlxalq Tolerantlıq Günü ərəfəsində bu cür böyük Sammitin təşkili əlamətdar hadisədir və əminliklə deyə bilərik ki, bu toplantı dialoqun dərinləşməsinə, dini tolerantlığın möhkəmlənməsi sahəsində sıx əməkdaşlığın inkişafına, müasir çağırışlara və təhlükələrə qarşı fəaliyyətə şərait yaradacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İndi "Şahdəniz" qazının yolu Avropayadır



## Yataqdan hasilat getdikcə artır

*Əvvəli 1-ci səh.*

"Şahdəniz" layihəsinin operatoru olan BP şirkətindən aldığımız məlumatda bildirilir ki, cari ilin əvvəlindən yataqdan hasilat sabit şəkildə davam edir. "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından ilin ilk 9 ayında 12,2 milyard standart kubmetr qaz və təqribən 2,6 milyon ton (21 milyon barel) kondensat alınıb.

"Şahdəniz Alfa" artıq 13 ildir fəaliyyət göstərir. "Şahdəniz Bravo" isə yatağın işlənməsinin ikinci mərhələsi çərçivəsində keçən ilin ortalarından istismar olunur. Platformadan ilk qazın əldə olunduğu vaxtdan bəri hasilat tədricən artmaqda davam edir.

Hazırda "Şahdəniz"in hasilat qurğularının ümumi gücü gündə 56 milyon (ildə 20 milyard) standart kubmetrdir.

"Şahdəniz"də yeni quyular da qazılır. "İstiqlal" qazma qurğusu yatağın şərq cinahının cənub hissəsində bir, qərb cinahının cənub hissəsində isə iki sualtı quyuda işləri tamamlayıb. Şərq cinahın şimal hissəsində də bir sualtı quyuda işlər başa çatdırılıb və burada ikinci quyunun tamamlanma əməliyyatları həyata keçirilir.

"Maersk Explorer" qurğusu da yatağın ərazisindədir. Qurğu "Şahdəniz"in şimal cinahında bir quyunu tam dərinliyinədək, digərini lüləsinin üst intervalınadək qazıb. Qərb cinahda daha iki quyunun üst intervalının qazılması həyata keçirilib. Hazırda həmin cinahda bir quyunun alt hissəsində qazma işləri davam edir.

Sözügedən iki qurğu vasitəsilə "Şahdəniz-2" üçün 16 quyu qazılıb. Qazma işləri hasilat planlaşdırılan sabit səviyyəyə çatanadək davam edəcək.

"Şahdəniz" qazını Azərbaycan və Gürcüstan ərazisində 691 kilometrlik məsafə boyu (Azərbaycanda 443, Gürcüstanda 248 kilometr) daşımaqla Türkiyə sərhədinədək Cənubi Qafqaz Boru Kəməri (CQBK) çatdırır. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya 280 kilometrlik əlavə xətt də birləşir və Azərbaycan qazını Ərzurumadək aparır. Bütövlükdə bu xətt Bakı-Tbilisi-Ərzurum kəməri adlanır.

"Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan qazı ixrac etmək üçün CQBK-nın genişləndirilməsi həyata keçirilib. Genişləndirilmiş CQBK ilə keçən ilin iyun ayından Türkiyəyə qaz təhvil verilməsinə başlanıb.

Bu ilin ilk üç rübü ərzində CQBK-nın orta gündəlik ötürücülük gücü 28 milyon kubmetrdən çox olub.

Xatırladaq ki, "Şahdəniz-2" və CQBK-nın genişləndirilməsi "Cənub qaz dəhlizi"nin iki mühüm seqmentini təşkil edir. Bu iki layihənin başa çatması keçən ilin mayında "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsinə imkan yaratdı. Açılış mərasimi Səngəçal terminalında keçirildi.

Bu hadisədən təxminən yarım ay sonra Azərbaycan qazını Türkiyənin ərazisi ilə daşıyan 1900 kilometrlik Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) işə düşməsi qeyd edildi. İndi dəhlizin son hissəsi olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) istifadəyə verilmək ərəfəsindədir. Gələn il TAP kəməri TANAP-dan qəbul etdiyi "Şahdəniz" qazını Avropaya çatdıracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Rusiyanın patriarxı Kirill İçəri şəhəri ziyarət edib



Dünya dini liderlərinin II Sammiti çərçivəsində Azərbaycanda səfərdə olan Moskvanın və Bütün Rusiyanın patriarxı Kirill İçəri şəhəri ziyarət edib.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dini lideri Azərbaycandakı Rus Pravoslav Kilsəsinin din xadimləri və rəsmi şəxslər qarşılayıb. Azərbaycanda yaşayan pravoslav icmasının üzvləri ilə görüşən patriarxın şərəfinə dini ayin icra olunub.

Nəzərə çatdıraq ki, Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə evsahibliyi etdiyi Dünya dini liderlərinin II Bakı Sammiti Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamıdır.

# Sentyabrda ölkə üzrə orta aylıq nominal əməkhaqqı 723 manatdan çox olmuşdur

**2019-cu il oktyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz artaraq 1 milyon 639,1 min nəfər olmuşdur. Onlardan 909,5 min nəfəri iqtisadiyyatın dövlət, 729,6 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Muzdla işləyənlərin 20,2 faizi təhsil, 17,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,3 faizi sənaye, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,6 faizi tikinti, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Cari ilin yanvar-sentyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 11,7 faiz artaraq 603,5 manata çatmışdır.

Prezidentin müvafiq sərəncamları ilə reallaşdırılan kompleks sosial islahatlar nəticəsində sentyabr ayının 1-dən ölkədə minimum aylıq əməkhaqqı məbləğinin 250 manata qaldırılması, dövlət qulluqçularının, dövlət büdcəsindən maliyyələşən bir sıra idarə, müəssisə və təşkilatlarda, dövlət neft şirkətində çalışan işçilərin əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması, bununla əlaqədar özəl sektorda çalışanların da əməkhaqlarının yüksəlməsi və bu sahədə şəffaflaşma proseslərinin sürətləndirilməsi nəticəsində cari ilin sentyabr ayında ölkə üzrə orta aylıq nominal əməkhaqqı 723,4 manata çatmışdır ki, bu da ötən ilin sentyabr ayı ilə müqayisədə 35,8, avqust ayı ilə müqayisədə isə 21,6 faiz çoxdur.

# Ölkəmiz regiondakı əlverişli imkanından səmərəli istifadə edir

## Prezident İlham ƏLİYEV: "Bu gün Azərbaycan etibarlı tranzit ölkə kimi öz xidmətlərini göstərir"

*Əvvəli 1-ci səh.*



Qeyd etdi ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə ölkəmiz dünya miqyasında 34-cü yerdə qərarlaşır. Nəqliyyat infrastrukturunun səviyyəsinə görə isə Azərbaycan dünyada 31-ci yerdədir. Sözsüz ki, bu nailiyyətlərin qazanılması dövlət başçısının son 16 ildə gördüyü böyük işlərin real nəticəsidir.

Prezident İlham Əliyev həmin görüşdə ölkəmizdə həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "...Vaxtilə Azərbaycanın təşəbbüsü ilə başlanan və bizim böyük maliyyə dəstəyimizlə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolu xətti çox mühüm əhəmiyyət daşıyır. Mən əvvəllər də, biz dəmir yolunun təməlini qoyanda da bunu demişəm ki, bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və bu layihə açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir... "Şimal-Cənub" və "Şərq-Qərb nəqliyyat dəhlizi"nin iştirakçıları bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini vermişdir. Bu, bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir".

Azərbaycandan keçən ikinci beynəlxalq əhəmiyyətli dəmir yolu marşrutu "Şimal-Cənub nəqliyyat dəhlizi"nin ayrılmaz hissəsidir. Həmin nəqliyyat xəttinin ölkəmizin ərazisindən keçən hissəsində bütün işlər yekunlaşaraq İran sərhədinədək uzanıb. Artıq bu marşrut fəaliyyət göstərir. Belə ki, ötən il "Şimal-Cənub nəqliyyat dəhlizi" vasitəsilə daşınan yüklərin həcmi 8 dəfə, cari ilin 9 ayında isə daha 70 faiz artıb. "Şimal-Cənub dəhlizi" Azərbaycanda daha iki istiqamətdə - Şimal-Qərb, Şərq-Qərb marşrutu üzrə fəaliyyət göstərir. Ölkəmiz həm də bu marşrut xətlərini özündə cəmləşdirən mühüm nəqliyyat qovşağıdır. Belə coğrafi imkan, üstəgəl yüksək inkişaf etmiş infrastruktur Azərbaycanı dünyada etibarlı tranzit ölkə kimi tanıdır.

Dövlət başçısı beynəlxalq əhəmiyyətli dəmir yollarının çəkilməsi ilə yanaşı, yerli əhəmiyyətli xətlərin çəkilməsinə xüsusi önəm verir. Cəmiyyət tərəfindən bu istiqamətdə bir çox işlər görülür. Bakı-Sumqayıt dəmir yolu xətti bərpa olunaraq yeni qatarlarla təchiz edilib. Bunun sayəsində hazırda 12 min sərnişin daşınır. Gələcəkdə 25-30 min sərnişinin daşınması nəzərdə tutulub. Bakıətrafı marşrutların uzun illərin istismarı sayəsində sıradan çıxmış yol yataqları da bərpa edilir. Bakı və Abşeron marşrutlarının dəmir yolu üzrə işlərin 80, elektrik, rabitə və işarəvermə işlərinin isə 70 faizi yerinə yetirilib, 11 yeni modern stansiya tikilib. Yol üzərində 18 piyada və 16 avtomobil keçidi inşa olunub, yol boyu çirkab və tullantı suları yığışdırılıb.

Bakıdan Gəncəyə gedən dəmir yolunda həyata keçirilən yenidənqurma işlərindən sonra müasir tipli qatarlar bu xətt üzrə sərnişin daşıyır. Həmin qatarlar Bakıdan Gəncəyə və geriyə 4 saat ərzində çatır. Qatarların sürətini saatda 140 kilometrə çatdırmaqla həmin müddəti 3 saata endirmək də mümkündür. Digər tərəfdən, Bakı-Gəncə dəmir yolu xəttinin Ağstafa şəhərinədək uzadılması nəzərdə tutulub. Məqsəd Qərb bölgəsi üzrə sərhədyanı rayonların sərnişinlərini mənzilbaşına rahat çatdırmaqdır.

Gələn il Ləki-Qəbələ dəmir yolunun istifadəyə verilməsi planlaşdırılır. Bakıdan sonra ən böyük turizm mərkəzi olan Qəbələyə qonaqların rahat gediş-gəlişi üçün bu marşrutun böyük əhəmiyyəti var. Bundan başqa, dünyanın ən böyük qış-xizək istirahət mərkəzi olan Şahdağa da dəmir yolu çəkilməsi nəzərdə tutulub. Xaçmaz və Qusar rayonlarını əhatə edəcək bu dəmir yolunun da çəkilməsi yaxın illərdə reallaşacaq. Beləliklə, dəmir yolu şəbəkəsi ölkə ərazisində yük və sərnişinlərin daşınması üçün mükəmməl səviyyəyə çatacaq.

Dövlət başçısı, həmçinin bu sahədə təcili görülməli işlər barədə də tapşırıq verdi. Qeyd etdi ki, Bakı-Yalama və Ələt-Astara dəmir yollarının vəziyyəti bizi qane edə bilməz. Orada vaxtında təmir işləri görülmədiyindən hazırda qatarlar saatda təqribən 40, maksimum 50 kilometr sürətlə hərəkət edir. Bu da "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə böyük həcmdə yüklərin daşınmasına və sərnişinlərə xidmət göstərilməsinə imkan vermir. Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova bu qatarların sürətinin saatda minimum 140 kilometrə çatdırılması barədə göstəriş verdi.

Biləcəri-Yalama istiqamətində yolun uzunluğu 348 kilometrdir. Bu yolun yenidən qurulması üçün Dünya Bankı, Fransa İnkişaf Agentliyi ilə aparılan danışıqlar müsbət nəticəsini verib. Həmin marşrutun kreditləşməsi sayəsində işlərə cari ilin dekabr və ya gələn ilin yanvar ayında başlanması nəzərdə tutulub. Marşrut üzrə yenidənqurma işləri həyata keçirildikdən sonra həm yüklərin, həm də sərnişinlərin daşınması keyfiyyət və sürət baxımından xeyli yaxşılaşacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Seçki mübahisələrinin həllinə dair növbəti seminar-müşavirə Şirvanda keçirilib

Mərkəzi Seçki Komissiyasının (MSK) təşəbbüsü və təşkilatçılığı ilə noyabrın 15-də Şirvanda növbəti regional seminar-müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli mövzusunda keçirilən tədbir dairə seçki komissiyalarının bu istiqamətdə məlumatının artırılması və işgüzar fəaliyyətlərinin daha da təkmilləşdirilməsi məqsədi daşıyıb.

Seminar-müşavirə MSK katibi Arifə Muxtarova, Ali Məhkəmənin hakimi Xəqani Məmmədov və Şirvan Apelyasiya Məhkəməsinin sədri Rəşadət Ağayevin açılış nitqləri ilə başlayıb. Çıxışlarda layihənin vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasında mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Tədbirdə həmçinin MSK, Ali Məhkəmə və Şirvan Apelyasiya Məhkəməsinin nümayəndələri tərəfindən "Vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onların araşdırılması qaydası", "Seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" və "Məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" mövzularında məruzələr oxunub. Müvafiq məhkəmələrin təmsilçilərinin və region üzrə 27 seçki dairəsindən dairə seçki komissiyaları sədrlərinin qatıldığı seminar-müşavirə öz işini seçki mübahisələrinin həlli ilə bağlı müxtəlif məsələlər ətrafında müzakirələrlə davam etdirib.

Qeyd edək ki, sözügedən seminar-müşavirə MSK-nın maarifləndirmə proqramı çərçivəsində gerçəkləşdirilən genişmiqyaslı layihənin dördüncü tədbiridir və noyabrın 18-də Naxçıvan Muxtar Respublikasında keçirilməsi nəzərdə tutulan seminar-müşavirə ilə bu layihəyə yekun vurulacaq.

# Əlilliyi olan şəxslərə reabilitasiya vasitələri yerlərdə təqdim edilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi bölgələrdə səyyar formada protez-ortopedik xidmətlərini davam etdirir.**

Sonuncu belə tədbirdə mərkəz tərəfindən Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz rayonlarında yaşayan 65 nəfər əlilliyi olan şəxsə ehtiyac duyduqları reabilitasiya vasitələri həmin rayonlara aparılaraq təqdim olunmuşdur. Onlar ehtiyaclarına uyğun olaraq 6 əlil arabası, 72 cüt protez və ortopedik ayaqqabı, 6 ədəd aşağı ətraf və yuxarı ətraf tutoru-ortezi, habelə aparat-ortezi ilə təmin edilmişlər. Həmin şəxslərə lazım olan digər ləvazimatlar da verilmişdir.

# Xarici ticarət əlaqəsində 4 milyard dollarlıqdan çox müsbət saldo

*Əvvəli 1-ci səh.*

2018-ci ilin eyni ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 7,2, real ifadədə 1,4, o cümlədən idxal 3,4, ixrac 0,3 faiz artmışdır. Bu dövr ərzində ölkədən 1 milyard 413,1 milyon dollarlıq qeyri-neft-qaz məhsulları ixrac edilmişdir ki, bu da ötən ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 17,1, real ifadədə 12,1 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 28,5 faizini İtaliyaya, 14,8 faizini Türkiyəyə, 7,2 faizini İsrailə, 5,5 faizini Hindistana, 4,9 faizini Almaniyaya, 4,7 faizini Çinə, 3,6 faizini İspaniyaya, 3,4 faizini Rusiyaya, 3 faizini Fransaya, 2,9 faizini Çexiyaya, 2,8 faizini Gürcüstana, 2,6 faizini Birləşmiş Krallığa, 2,4 faizini Portuqaliyaya, 1,9 faizini Ukraynaya, 11,8 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (33 faiz), Türkiyəyə (21,5 faiz), İsveçrəyə (8,9 faiz), Gürcüstana (8,7 faiz), İtaliyaya (2,4 faiz), Ukraynaya (2,3 faiz), Yunanıstana (2,3 faiz), Çinə (2,2 faiz), İrana (1,5 faiz) və Niderlanda (1,4 faiz) göndərilmiş malların payı üstün olmuşdur.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 15,5 faizi Rusiya, 11,6 faizi İsveçrə, 11,1 faizi Türkiyə, 9,3 faizi Çin, 6,3 faizi ABŞ, 4,9 faizi Almaniya, 3,8 faizi Kanada, 3,5 faizi İran, 3,3 faizi Ukrayna, 2,8 faizi Avstraliya, 2,6 faizi İtaliya, 1,9 faizi Fransa, 1,7 faizi Birləşmiş Krallıq, 1,6 faizi Qazaxıstan, 20,1 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

DSK-nın məlumatında, həmçinin açıqlanır ki, bu ilin 9 ayında 2018-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 21,5, şəkər - 49,5, meyvə və tərəvəz şirələri - 33,7, çay - 7, marqarin, qida üçün yararlı digər qarışıqlar - 49,6, pambıq lifi - 47,2, pambıq ipliyi - 38,1, emal olunmamış alüminium - 24,1, polietilen - 2,5, bentonit gili - 17,2 faiz və tütün 2 dəfə artmış, təzə tərəvəz ixracı 3, kartof - 7,2, bitki yağları - 17,2, meyvə və tərəvəz konservləri - 0,4, təbii üzüm şərabları və üzüm suslosu - 18,7, qara metallardan yarımfabrikatlar - 3,6, qara metallardan borular 81,9 faiz azalmışdır.

Ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə cari ilin müvafiq dövründə buğda idxalı 34,2, xam şəkər və şəkər - 39,9, təzə meyvə - 2,7, bitki yağları - 6, kərə yağı, digər süd yağları və pastaları - 13, çay - 2,5, quş əti və onun əlavə məhsulları - 9,6, kartof - 23,9, mal əti - 13,2, təzə tərəvəz - 36,3, polad prokatı - 25,6, mineral gübrələr - 47,6, hesablama maşınları, blok və qurğuları - 35,5, rezin şinlər - 12,7, mebellər - 9,6, polietilen - 27,8 faiz, yük avtomobilləri - 3,7 minik avtomobilləri 1,9, avtobuslar 3,4 dəfə artmış, siqaret idxalı 49,1, qara metallardan borular - 13,6, qara metallardan çubuqlar - 20, sement və sement klinkerləri - 17,8, məişət soyuducuları 17,1 faiz azalmışdır.

# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təliminin sonuncu mərhələsi keçirilib

Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə keçirilən genişmiqyaslı əməliyyat təliminin sonuncu mərhələsi keçirilib.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin sonuncu mərhələsində müxtəlif poliqon və təlim mərkəzlərinə çıxarılan birləşmə və hissələrin qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi, o cümlədən atışların praktiki icrası səviyyəsi yoxlanılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təlimi noyabrın 12-də başlayıb.

Üç mərhələdə keçirilən təlimin əsas məqsədi şərti düşmənin təxribatlarının qarşısını almaqla hücum əməliyyatlarının aparılması zamanı qərargahların və qoşunların idarəetmə orqanlarının hazırlığının, eləcə də ümumqoşun birlikləri, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsidir.

Əməliyyat təlimində qoşunların, dayanıqlı, fasiləsiz, operativ və gizli idarəedilməsi, qərargahların səhra idarəetmə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi, videokonfranslar və fiberoptik kommunikasiya xətləri vasitəsilə sərəncam və əmrlərin taktiki və əməliyyat səviyyəsində sürətli ötürülməsi və şəraitə uyğun olaraq qərarların qəbul edilməsi üzrə vərdişlər məşq etdirilib.

# Bakıda ilk dəfə olaraq "Süni intellekt və insan hüquqları" mövzusunda beynəlxalq konfrans keçirilib

Dünyada yeni texnologiyaların inkişafı, cəmiyyət həyatının müxtəlif sahələrində süni intellektdən və robot texnikasından istifadə müasir dövrün reallıqlarındandır.



Son illərdə Azərbaycanda da Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatında dünya elminin müasir nailiyyətləri tətbiq edilir. Belə ki, Azərbaycan kosmosa üç peyk göndərib, ölkədə "intellektual nəqliyyat" sistemi yaradılıb.

Azərbaycanın məhkəmə-hüquq sistemində müasir texnologiyaların tətbiqi üzrə əldə etdiyi uğurlar beynəlxalq ictimaiyyətin də böyük marağına səbəb olub. Dünyada süni intellektin və robot texnikasının geniş tətbiqi beynəlxalq və milli hüququn qarşısında ciddi məsələlər qoyur. Ölkəmizin nailiyyətlərini dünya ölkələri ilə paylaşmaq, həmçinin məhkəmə-hüquq sahəsində süni intellektin və informasiya texnologiyalarının tətbiq olunmasına dair beynəlxalq təcrübəni öyrənmək məqsədilə Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) və Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun noyabrın 15-də Bakıda təşkil etdiyi "Süni intellekt və insan hüquqları" adlı beynəlxalq konfrans məhz sözügedən məsələlərə həsr olunub.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov Azərbaycanın nailiyyətlərini dünya ölkələri ilə bölüşmək, həmçinin məhkəmə-hüquq sahəsində süni intellektin və informasiya texnologiyalarının tətbiqinə dair beynəlxalq təcrübəni öyrənmək məqsədilə təşkil olunan konfransın əhəmiyyətini vurğulayıb. O, son illərdə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatında dünya elminin müasir nailiyyətlərinin tətbiq edildiyini vurğulayıb.

AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru, Milli Məclisin deputatı, hüquq üzrə elmlər doktoru, professor Aytən Mustafazadə çıxış edərək süni intellekt və robotlardan istifadənin hüquq elmində tamamilə yeni bir istiqamət formalaşdırdığını, hüquq və insan haqları kontekstində süni intellektin cəmiyyətdə yeni çağırışlar edən mühüm məsələ olduğunu qeyd edərək dövrün tələbləri ilə ayaqlaşan Azərbaycan elmində, eyni zamanda, insan hüquqları sahəsində sözügedən mövzuya dair dünya təcrübəsinin öyrənilməsi və tətbiqi məqsədilə belə bir konfransın keçirildiyini diqqətə çatdırıb.

Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti, hüquq üzrə elmlər doktoru Ramin Qurbanov çıxışında bildirib ki, Avropa Komissiyası müvafiq regionda məhkəmə sisteminin, ədliyyə və prokurorluq orqanları, vəkillik institutunun fəaliyyətinin səmərəliliyi və keyfiyyətinin artırılmasının təşviqi və dəstəklənməsi ilə fəal məşğul olur. CEPEJ tərəfindən üzv dövlətlərdə ədliyyənin səmərəliliyi və keyfiyyətinin artırılması məqsədilə çox sayda rəhbər qaydalar və digər sənədlər hazırlanır, habelə müxtəlif aktual mövzulara dair elmi tədqiqatlar aparılır. Onlardan biri kimi CEPEJ ötən ilin dekabr plenar iclasında "Süni intellektin məhkəmə sistemləri və onlarla bağlı münasibətlərdə istifadəsinə dair Avropa Etik Xartiyası"nı qəbul edib. Bu da Avropada ilk dəfə olaraq siyasətçilərə, qanunvericilərə və ədliyyə sahəsində çalışan rəhbər şəxslərə milli məhkəmə proseslərində süni intellektin sürətli inkişafı məsələsində istiqamət verə biləcək normativ prinsiplər çərçivəsini təmin edib. Unudulmamalıdır ki, süni intellekt qanunun aliliyinin təminatlarını, həmçinin ədliyyəyə əlçatımlığı və ədalət mühakiməsinin keyfiyyətini azaltmaq deyil, əslində gücləndirməlidir. Ramin Qurbanov süni intellektin tətbiqinin insan hüquqlarına birbaşa təsir göstərə biləcəyini, bu sahəni tənzimləyən ilk Avropa Etik Xartiyasının məhz rəhbərlik etdiyi qurum tərəfindən hazırlanaraq təsdiq olunduğunu, həmin Avropa standartlarına bütün üzv dövlətlərin riayət edəcəklərinin zəruriliyini, habelə Avropa Şurasının üzv dövlətlərində olduğu kimi, Azərbaycanda da süni intellektin hüquq sistemində tətbiq edilməsi vacibliyini və ölkə başçısının məhkəmə-hüquq sisteminə göstərdiyi diqqətin nəticəsi olaraq bu gün Azərbaycanın məhkəmə sisteminin rəqəmsallaşdırılması istiqamətində irihəcmli işlərin görülməsini bildirib.

Mövzunun aktuallığını vurğulayan Avropa Şurasının Bakı ofisinin rəhbəri Zoltan Hernyeş müxtəlif sahələrdə süni intellektin tətbiqindən söz açıb.

Beynəlxalq konfransda süni intellektin məhkəmə və özəl icra sistemlərində tətbiqinə dair Avropada mövcud olan təcrübələr, rəqəmsallaşma sahəsində son yeniliklər, eləcə də Azərbaycanın milli qanunvericiliyi və bu sahədəki perspektivlər, qarşıda duran vəzifələr, rəqəmsal ədliyyəyə keçid kimi mühüm mövzular ətrafında maraqlı müzakirələr aparılıb. Müzakirələrdə rəsmi şəxslər, məhkəmə sədrləri, hakimlər, vəkillər, tanınmış yerli və xarici ekspertlər, diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Sonda Avropa Şurasının xüsusi nəşri olan - CEPEJ-in "Süni intellektin məhkəmə sistemləri və bu sistemlərlə bağlı münasibətlərdə istifadəyə dair Avropa Etik Xartiyası"nın Azərbaycan dilində buraxılışının təqdimatı olub.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanına əsasən ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların inamının artırılması, onların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və genişləndirilməsi, məhkəmə sistemi və qərarların icra xidmətinin elektronlaşdırılması, həmçinin müxtəlif texnoloji yeniliklərin tətbiqi ilə bağlı ölkəmizdə aparılan ardıcıl və məqsədyönlü islahatlar davam edir.

Bu islahatlar çərçivəsində görülən işlərin nəticəsi olaraq hazırda müxtəlif sahələrdə avtomatlaşdırılmış elektron sistemlərdən, süni intellektin müxtəlif elementlərindən uğurla istifadə olunur və belə texnologiyaların tətbiqi daha da genişləndirilir.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC ISO beynəlxalq standart sertifikatlarına layiq görülüb

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti beynəlxalq standartların tətbiqi istiqamətində daha bir uğura imza atıb. Cəmiyyət ISO (International Organization for Standardization) beynəlxalq standartlarına dair 3 sertifikata layiq görülüb.



"TUV AUSTRIA CERT GMBH" sertifikatlaşdırma orqanı tərəfindən cari ilin 14-16 oktyabr tarixlərində keçirilmiş sertifikatlaşma auditinin nəticələrinə əsasən "AzerGold" QSC-yə Keyfiyyət İdarəetmə Sistemi üzrə ISO 9001:2015, Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyi İdarəetmə Sistemi üzrə ISO 45001:2018 və Ətraf Mühiti İdarəetmə Sistemi üzrə ISO 14001:2015 beynəlxalq sertifikatları təqdim edilib.

Xatırladaq ki, "AzerGold" QSC beynəlxalq standartların tətbiqinə 2016-cı ildən başlayıb. Səhmdar cəmiyyət fəaliyyətin beynəlxalq idarəetmə standartlarına uyğun qurulması, o cümlədən qanunların və normativ sənədlərin tətbiqi, kadrların səriştəliliyi, istehsal olunan məhsulların rəqabətə davamlılığının artırılması, sağlam iş şəraitinin yaradılması, təbii ehtiyatlara zərərli tullantıların mənfi təsirinin azaldılması və digər meyarlar əsasında gözlənilən nəticələrə nail olub.

Adıçəkilən beynəlxalq sertifikatların əldə olunması şirkətə fəaliyyətin beynəlxalq idarəetmə standartlarına uyğun qurulması, istehsalın artması, beynəlxalq bazarlara çıxışın asanlaşması və ixrac potensialının artırılması kimi mühüm imkanlar yaradaraq müəssisənin daxili və xarici bazarda müsbət imicinin qorunub saxlanılmasına, idarəetmədə müasir metodların tətbiqinə, ətraf mühitin mühafizəsi, əməyin təhlükəsizliyi və bu sahələrdə görülən işlərin daha da mükəmməlləşdirilməsinə təkan verəcək. Cəmiyyətin fəaliyyət sahəsinə uyğun olaraq, gələcəkdə digər beynəlxalq standartların da tətbiqi nəzərdə tutulur.

*"Azərbaycan"*

təmiz şəhər

# "Təmiz Şəhər" ASC beynəlxalq sərgidə iştirak edib





"Təmiz Şəhər" ASC-nin ekoloji mühitin qorunması sahəsində gördüyü işlər 13-15 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən "Caspian Ecology" 10-cu Beynəlxalq Ətraf Mühit Sərgisində nümayiş olunub.

İştirakçılar tullantıların çeşidlərə ayrılmaqla təkrar emala yönəldilməsi, tullantı kütləsinin yandırılması ilə elektrik enerjisinin əldə olunması prosesləri, Abşeron göllərinin kompleks bərpası layihəsi çərçivəsində həyata keçirilən tədbirləri əks etdirən informativ materiallarla, sosial layihələrlə tanış olublar.

Sərgidə 10 ölkədən 60 şirkətin nümayəndəsi iştirak edib.

*"Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələri bölgələrdə vətəndaşları qəbul ediblər

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Əhməd Əhmədzadə noyabrın 15-də Balakən şəhərində vətəndaşlarla görüşüb.

Rayon suvarma sistemləri idarəsinin inzibati binasında keçirilən qəbulda Balakən rayonundan olan vətəndaşların müraciətləri dinlənilib.

Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, suvarma kanallarının beton üzlüyə alınması, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti ASC-nin sədri Əhməd Əhmədzadə tərəfindən diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi yerində həll olunub. Digər müraciətlər üzrə cəmiyyətin məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, həmin gün Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri Zakir Quliyev Qax rayonunda, Rafiq Aslanov isə Zaqatalada vətəndaşları qəbul edib, onların müraciət və şikayətlərini dinləyiblər.

* * *

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov noyabrın 15-də Abşeron Rayon Prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan və Şuşa rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 18 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Noyabrın 15-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Lənkəran şəhərində, nazirin birinci müavini Əli Abdullayev Astara rayonunda vətəndaşlarla görüşüb.

Nazir Lənkəran və Lerik, nazirin birinci müavini isə Astara sakinlərini qəbul edib.

Vətəndaşlar tərəfindən əsasən nəqliyyat, telekommunikasiya, informasiya texnologiyaları və poçt rabitəsi ilə bağlı müraciətlər səsləndirilib.

Vətəndaş müraciətlərinin bir qismi yerindəcə həll olunub, digərləri araşdırılması üçün nəzarətə götürülüb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı isə vətəndaşlara müvafiq izahatlar verilib, onlara həmin müraciətlərin aidiyyəti strukturlara göndəriləcəyi bildirilib.

* * *

Noyabrın 15-də Mədəniyyət naziri Əbülfəs Qarayev Kürdəmir rayonunda vətəndaşlarla görüşüb.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev həmin gün Ağdam rayon Heydər Əliyev Mərkəzində (Quzanlı qəsəbəsi) Ağdam rayonundan, nazir müavini Rafiq Bayramov Ağcabədi Rayon Bayraq Muzeyində Ağcabədi və Laçın rayonlarından olan vətəndaşları qəbul ediblər.

Nazir Əbülfəs Qarayevin Kürdəmir Heydər Əliyev Mərkəzində keçirdiyi qəbulda sakinlər tərəfindən Aşıq Yaradıcılığı Mərkəzinin yaradılması, rayonun Sığırlı kəndindəki Qaratəpə yaşayış yeri və qəbiristanlıq ərazisində arxeoloji qazıntı aparılması, elmi araşdırma işlərinin həyata keçirilməsi, kəndlərdə mədəniyyət mərkəzləri və kitabxana-informasiya mərkəzlərinin yaradılması, Heydər Əliyev Mərkəzində təmir işlərinin görülməsi ilə bağlı müraciətlər səslənib.

Qəbulda həmçinin böyük Azərbaycan şairi, mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı hazırlanmış "Mən bu cahana sığmazam" tamaşasının Bakıda nümayiş olunması, muzeylər arasında təcrübə mübadiləsinin aparılması, kitabxanalara yeni nəşrlərin verilməsi, rayonda kino mərkəzinin yaradılması, işlə təmin olunma barədə müraciətlər olub.

* * *

Noyabrın 15-də "Azərişıq" ASC-nin sədri vəzifəsini icra edən Vüqar Əhmədov Yardımlıda vətəndaşları qəbul edib.

Qəbulda Masallı və Yardımlıdan olan vətəndaşlar iştirak edib.

Əhalinin müraciətlərini dinləyən "Azərişıq" ASC-nin rəhbərliyi tərəfindən bütün məsələlərin qanunvericiliyə uyğun və operativ şəkildə həll edilməsi üçün cəmiyyətin əlaqədar struktur qurumlarının rəhbərlərinə və rayon elektrik şəbəkələrinin rəislərinə müvafiq göstərişlər verilib. Vətəndaşların müraciətlərinin əksəriyyəti yerindəcə həllini tapıb. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və operativ həlli üçün icraya yönəldilib. Qurumun fəaliyyət istiqamətlərinə aid olmayan müraciətlər isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib.

* * *

Noyabrın 15-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Masallı şəhərindəki Heydər Əliyev Mərkəzində Yardımlı və Masallı, Xidmətin rəis müavini Mayıl Şahverdiyev isə Cəlilabadda Biləsuvar və Cəlilabad rayonlarının vətəndaşlarını qəbul ediblər.

Qəbula gələn vətəndaşların müraciətləri əsasən veteran adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətə çağırılan gənclərin ailə vəziyyəti ilə əlaqədar daha yaxın hərbi hissələrdə xidmət göstərmələri, qurumun müvafiq şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbul zamanı qaldırılan məsələlərin bir çoxu operativ surətdə yerindəcə həll edilib.

# Ermənistanda Paşinyana etimad azalıb

## Sosial-iqtisadi göstəricilər pisləşib, ölkədən kütləvi köç azalmayıb, xarici borc artıb

Ermənistanda Nikol Paşinyan hakimiyyətinin sosial-iqtisadi müstəvidə verdiyi vədləri yerinə yetirə bilməməsi artıq yeni iqtidara xalqın etimadının itdiyini üzə çıxarır. Sosial-iqtisadi sahədə yaşanan problemlərin getdikcə dərinləşməsi işğalçı ölkədə əhalinin narazılığının əvvəlki kimi yüksək həddə olması ilə müşayiət edilir. Bütün bunların fonunda isə Paşinyanın reytinqi getdikcə aşağı düşür.

Aparılan müstəqil sorğulara görə, baş nazirə etimad azalmaqda davam edir. Hakimiyyətdə olduğu ötən müddət ərzində ölkənin makroiqtisadi göstəriciləri, əhalinin güzəranı yaxşılaşmayıb. Sosial-iqtisadi göstəricilər daha da pisləşib, ölkədən kütləvi köç azalmayıb, xarici borclar artıb, Ermənistana böyük sərmayə yatırımına nail olunmayıb.

Elə işğalçı ölkənin iqtisadiyyatında əsas iş göstəricilərini qiymətləndirən Dünya Bankının son hesabatına diqqət çəkmək kifayətdir. Hesabatda ötən il 41-ci yerdə göstərilən Ermənistan bu il 47-ci yerə qədər yuvarlanıb. Bu, sərmayələrin cəlb edilməsi və yeni müəssisələrin yaradılması baxımından ölkədə heç bir iş görülmədiyini təsdiq edir.

Bildirilir ki, ölkədə büdcə kəsirinin aradan qaldırılması məqsədi ilə Dünya Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq maliyyə qurumları ilə danışıq davam edir və ilin sonunadək təxminən 150 milyon dollar həcmində kreditin alınması planlaşdırılır.

Yeni iqtidar mütəmadi olaraq daxili istifadə üçün gizli sorğular keçirir. Yerli medianın yazdığına görə, bir neçə gün əvvəl Paşinyana yeni bir sosial sorğu göstərilib və nəticəsi baş naziri əsəbiləşdirib. Qeyd olunur ki, sorğuya əsasən, baş nazirin reytinqi 21-23 faiz aralığında olub. Yekunda Paşinyan özünün ən etibarlı adamlarına reytinqinin daha da düşməməsi üçün ona gələcək fəaliyyət proqramını təqdim etməyi tapşırıb.

Xatırladaq ki, ötən ay sosial şəbəkədə aparılan sorğunun nəticələrinə görə, baş nazirin nüfuzu azalaraq 25 faizə düşmüşdü. "Lragir" qəzetinin verdiyi xəbərə görə, əldə edilən məlumata əsasən, rəqəmlər yenə də reallıqdan tamamilə çox uzaqdır: "Təxminən bir ay əvvəl gizli rəsmi kanallarla aparılan sorğunun nəticələrinə görə, Paşinyanın reytinqi 45 faizə düşmüşdü. Son hadisələrin, ötən aylarda yüksək səviyyəli istefaların Paşinyanın reytinqinə daha ciddi zərbə olduğu heç kimdə şübhə doğurmur. Yenidən sorğu keçirilsə, yəqin ki, nəticələr baş nazir üçün daha ağır olar".

Bu arada ağır sosial-iqtisadi vəziyyət fonunda Ermənistanda müşahidə olunan hallardan biri də yenidən çoxsaylı etiraz aksiyalarının başlanmasıdır. Ölkə vətəndaşları artıq maddi-sosial durumlarının nə vaxtsa yaxşılaşacağına olan ümidlərini tam itirmək üzrədirlər. Xüsusən də yeni iş yerlərinin açılması əvəzinə köhnələrinin bağlanması vəziyyəti ağırlaşdırır.

Təhsil işçiləri iqtidara narazılığı açıq şəkildə dilə gətirirlər. Bu günlərdə Ermənistan hökumətinin hazırladığı ali təhsil haqqında yeni qanun layihəsində universitetlərin qeyri-humanitar fakültələrində erməni dili, erməni tarixi və ədəbiyyatı dərslərinin ləğv olunması qərarına etiraz edən tələbələr və professor-müəllim heyəti birgünlük tətil keçiriblər. Etirazlara rəhbərlik edən Yerevan Dövlət Universitetinin filologiya fakültəsinin professoru Narina Dilbaryan bu mübahisəli qanun layihəsini Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi ilə müzakirə etməyi tələb edib. Tətillə paralel olaraq Yerevanın mətbuat mərkəzlərindən birində tarixçi alimlərin də mətbuat konfransı keçirilib.

Etirazlara millətçi "Daşnaksütyun" partiyası da qoşulub. Erməni dilinin və ədəbiyyatının arxa plana atıldığını iddia edən nümayişçilər baş nazir Paşinyandan nazir Araik Arutyunyanı istefaya göndərməyi tələb edirlər.

Görünən odur ki, hakimiyyət getdikcə dərinləşən problemlərə son qoymaq iqtidarında deyil. Elə bu səbəbdən qarşıdakı müddət ərzində Ermənistanda vəziyyətin daha da pisləşməsi gözlənilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# “Əbədiyyət günəşi” məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb




Noyabrın 15-də Beynəlxalq Mətbuat Mərkəzində “Əbədiyyət günəşi” adlı məqalə müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, “Nəsimi ili” çərçivəsində dahi şairin 650 illiyi münasibətilə reallaşan müsabiqə “Kaspi” qəzetinin layihəsi əsasında “Kaspi” Təhsil Şirkətinin dəstəyi ilə təşkil edilib.

Tədbir çərçivəsində “Kaspi nəşrləri” seriyasından olan iki kitabın - redaktoru filologiya elmləri doktoru Sona Vəliyeva olan “Əbədiyyət günəşi” və müəllifi Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev olan “Nəsimi dünyası rənglərin işığında” adlı kitabların təqdimatı da keçirilib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxış edərək müsabiqənin əhəmiyyətindən söz açıb. Bu il dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinin ölkəmizdə təntənəli şəkildə qeyd edildiyini deyən Ə.Amaşov bildirib ki, Nəsimi xalqımızın ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm edib.

“Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə bağlı görkəmli şairin 650 illiyi ölkə daxilində və ölkədən kənarda çoxsaylı tədbirlərlə qeyd edilib, Moskvada, Kiyevdə Nəsiminin abidəsi ucaldılıb. Həmçinin şairin xatirəsinə həsr edilən müxtəlif müsabiqələr təşkil olunub. Belə müsabiqələrdən biri də “Əbədiyyət günəşi” adlı məqalə müsabiqəsidir. Bu müsabiqəyə 60 yazı göndərilib. Münsiflər heyəti tərəfindən üç yerin qalibi müəyyənləşib, səkkiz iştirakçı isə həvəsləndirici mükafata layiq görülüb”, - deyə Ə.Amaşov söyləyib.

“Kaspi nəşrləri” seriyasının rəhbəri, filologiya elmləri doktoru Sona Vəliyeva vurğulayıb ki, Prezident İlham Əliyevin 2019-cu ili “Nəsimi ili” elan etməsi haqqında sərəncamı Azərbaycanın dünyəvi, bəşəri ideyalarla yaşayan ölkə olduğunu bir daha sübut etdi. Çünki Nəsimi ideyaları ilə yaşamaq dünyanı vahid vətən kimi qəbul eləmək, göy üzünü böyük bir çətir sanmaq, yer üzünü hüdudsuz bir meydan hesab etmək deməkdir. S.Vəliyeva söyləyib ki, “Nəsimi ili” xalqımıza sarsılmaz Nəsimi ruhu aşılayır. Ənənəvi olaraq ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilir, ədibin yaradıcılığına həsr edilən müxtəlif təyinatlı müsabiqələr reallaşır. İmadəddin Nəsiminin 650 illiyinin qeyd edilməsi haqqında ölkə başçısının müvafiq sərəncamı ədiblə bağlı görülməkdə olan işlərin həyata keçirilməsi üçün uğurlu və məqsədyönlü addım olub.

“Nəsimi yaradıcılığına ən böyük, dürüst qiymət verənlərdən biri Ümummilli Lider, Ulu Öndər Heydər Əliyev olub. Ulu Öndər hər zaman işləri ilə örnək olar, klassiklərimizə qayğısını əməli müstəvidə göstərərdi. Məhz Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin 600 illiyi UNESKO-nun tədbirləri siyahısına daxil edilərək 1973-cü ildə beynəlxalq müstəvidə qeyd olunub. Heydər Əliyevin tapşırığı ilə Nəsiminin Hələbdəki məzarı bərpa edilib, şairin portretini yaratmaq üçün beynəlxalq müsabiqə elan olunub, gözəl bir film ərsəyə gəlib. Dahi ədibin böyük miqyasda təbliği, əsərlərinin dünya miqyasında çapı və ardıcıl tədqiqata cəlb olunması da Ulu Öndərin qayğısı nəticəsində reallaşıb. Bütün bunlar tariximizin, ədəbi-mədəni həyatımızın səhifələrində Ulu Öndərin çoxsaylı silinməz izlərindəndir”.

“Kaspi” Təhsil Şirkəti və “Kaspi” qəzetinin dəstək və təşəbbüsü ilə baş tutan “Əbədiyyət günəşi” müsabiqəsinin əhəmiyyətinə toxunan Sona Vəliyeva diqqətə çatdırıb ki, müsabiqə bu il Nəsimi yaradıcılığına həsr edilmiş ilk məqalə müsabiqəsi olub. O, müsabiqədə iştirak edən hər kəsə təşəkkür edib, qaliblərə uğurlar arzulayıb.

Sonra müsabiqənin qalibləri mükafatlandırılıb.

# İnflyasiya aşağı səviyyədə olaraq qalır

Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə görə, cari ilin yanvar-oktyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,6, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 3,7, qeyri-ərzaq mallarının qiymətləri 1,2, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,2 faiz bahalaşmışdır.

Ötən ay isə sentyabra nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,4, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 0,2, qeyri-ərzaq mallarının qiymətləri 0,1, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 0,9 faiz yüksəlmişdir.

Ay ərzində düyünün, unun, mal və qoyun ətinin, təzə balığın, hisə verilmiş kolbasanın, pendirin, yumurtanın, pomidorun və s.-nin qiyməti bahalaşmış, makaronun, suda bişmiş kolbasanın, kəsmiyin, xamanın, kərə, zeytun, günəbaxan yağlarının, bir sıra meyvələrin və s.-nin qiymətləri isə ucuzlaşmışdır.

Qeyri-ərzaq mallarına gəldikdə, burada geyim və ayaqqabıların, mebel və ev əşyalarının, minik avtomobilləri üçün ehtiyat hissələrinin qiymətlərində bahalaşma, televizorların, kondisionerlərin, mobil telefonların, sementin və s.-nin qiymətlərində isə ucuzlaşma müşahidə olunmuşdur.

Keçən ay ödənişli xidmətlərdən də bəzilərinin qiymətlərində bahalaşma, bəzilərində isə ucuzlaşma qeydə alınmışdır.

## Geoloqlarımız

# Şərəf və ləyaqət rəmzi olan həyat yolu

O, ölkəmizin geoloji xidmətinə 25 il fasiləsiz olaraq rəhbərlik etmişdir. Böyük əməl sahibi, bacarıqlı təşkilatçı idi. Nəcib xüsusiyyətləri və ləyaqət rəmzi olan ömür yolu çoxlarına nümunə idi. Bu sonu görünməyən insan axınında, dünyadan köç edənlər içərisində az adam iz qoyub gedir. Unudulmaz Əkrəm Şəkinski isə özünə əbədi həyat qazanıb. O, heç kimə bənzəməyən keyfiyyətlərinə, yüksək ziyalılığına görə böyük hörmət və nüfuza malik idi. Görkəmli geoloq Əkrəm Şəkinsinin anadan olmasından 90 il ötür.



Əkrəm Şəkinski 1929-cu il noyabr ayının 16-da Bakı şəhərində, barəsində bu gün də ibrətamiz rəvayətlər söylənilən əfsanəvi “çekist” Məmməd-Emin Şəkinskinin ailəsində dünyaya göz açmışdır. Atasının repressiyaya məruz qalması Əkrəmi hələ yeniyetməlik çağlarından əmək fəaliyyətinə başlamağa vadar etmişdi. O, Xəzər Donanmasının İstehsalat kombinatının çörəkxanasında şagird, usta köməkçisi işləyərək qazandığı cüzi vəsaitlə məhrumiyyətlərə düçar olmuş ailəsinin yeganə dayağı olub. Bir müddət sonra gənc Əkrəm “Baştunelmetrotikinti” İdarəsinin Bakıdakı Baş Markşeyder İdarəsində fəhlə, kiçik texnik-geodeziyaçı işləmişdir.

1954-cü ildə Azərbaycan Sənaye İnstitutunun Geoloji-kəşfiyyat fakültəsində ali təhsilini tamamlamış, “Azneft” Birliyinin Dənizdə Geofiziki Kəşfiyyat İdarəsinə təyinat almışdır. Əkrəm burada seysmik kəşfiyyat partiyasının böyük radiotexnikindən baş mühəndis vəzifəsinədək yüksəlmişdir.

Ə.Şəkinski “Texnoeksport” Ümumittifaq Birliyi ilə İran Neft Şirkəti arasında bağlanmış müqavilənin məsləhətçi-rəhbəri səlahiyyətlərində 1966-1968-ci illərdə İranda xidməti ezamiyyətdə olub. Bu müddət ərzində onun rəhbərliyi və bilavasitə iştirakı ilə Cənubi Xəzərin İran sektorunda aparılan seysmik kəşfiyyat işləri nəticəsində 30-dan artıq perspektivli neft-qaz strukturları aşkarlanaraq dərin qazma işləri üçün hazırlanıb. Onun qonşu ölkədəki məhsuldar fəaliyyəti SSRİ Geologiya Nazirliyi və SSRİ-nin İrandakı Səfirliyi tərəfindən yüksək qiymətə layiq görülüb.

İran ezamiyyətindən geri dönən Ə.Şəkinski idarədəki sonuncu vəzifəsinə bərpa olunur və 1969-cu ildə idarə SSRİ Neft Sənayesi Nazirliyinin “Azneftgeofizkəşfiyyat” trestinə çevrilən andan onun müdiri vəzifəsinə təyinat alır.

Ölkənin neft sənayesi sistemində seysmik-kəşfiyyat partiyalarının rəisi, kontorun baş mühəndisi və trest müdiri vəzifələrində çalışdığı illər ərzində Ə. Şəkinskinin rəhbərliyi və bilavasitə iştirakı ilə quruda və dənizdə bir sıra perspektivli neft-qaz strukturları (quruda Kürsəngi, Qarabağlı, Muradxanlı; dənizdə Bulla-dəniz, Bahar, “28 Aprel”, Livanov, Qubkin strukturları və başqaları) aşkar edilir, dərin kəşfiyyat qazma işləri aparılması üçün təhvil verilir. Xüsusi qeyd etmək yerinə düşər ki, adları çəkilən strukturların bir qismi sonradan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əsas istismar obyektlərindən olmuşdur.

Xarici ölkələrlə iqtisadi əməkdaşlığa dair danışıqlar aparmaq məqsədilə Əkrəm Şəkinski hökumət komissiyalarının heyətində iki dəfə - 1969-cu ildə İranda və 1973-cü ildə Nigeriyada səfərdə olmuşdur.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1974-cü il 5 aprel tarixli Fərmanı ilə Ə. Şəkinski respublika hökumətinin tərkibinə daxil olmaqla Nazirlər Soveti Geologiya İdarəsinin rəisi vəzifəsinə təyin edilir və ömrünün sonunadək bu vacib dövlət qurumuna yüksək səriştəlilik, peşəkarlıq və tələbkarlıqla rəhbərlik edir.

Respublika iqtisadiyyatının mineral-xammal bazasının genişləndirilməsi, faydalı qazıntı ehtiyatlarının artırılması Ə.Şəkinskinin xidməti fəaliyyətinin başlıca qayəsi idi. Belə ki, 1975-1990-cı illər ərzində polimetal filizlərinin, yodlu-bromlu suların, qara metallurgiya üçün xammalın resursları iki dəfədən çox artırılır. İnşaat materiallarının, üzlük və dekorativ daşların, yeraltı şirin, termomineral və müalicə sularının külli miqdarda ehtiyatları təmin edilir.

SSRİ Dövlət Ehtiyatlar Komissiyasında 1976-cı ildə Katex, 1983-cü ildə isə Filizçay və Kasdağ yataqları polimetal filizlərinin sənaye ehtiyatlarının təsdiq edilməsilə respublikamızın şimali-qərb bölgəsində əlvan metallurgiyanın güclü mineral-xammal bazası yaradılır. Bu yataqların mənimsənilməsinə dair hazırlanmış texniki-iqtisadi əsaslandırmada filizlərin emalı təbiətin mühafizəsi tədbirlərinə riayət olunmaqla respublikamızın özündə nəzərdə tutulmuşdur.

1983-1990-cı illər ərzində ölkəmizin geoloji xidməti tarixində ilk dəfə olaraq iki mis-qızıl filizi yatağı kəşf olunaraq, sənaye kateqoriyaları üzrə ehtiyatları təsdiq edildi. Bunun sayəsində ötən əsrin 90-cı illərinin əvvəllərində kəşfiyyat mərhələsində olan iki analoji yataqla, respublika ərazisinin ümumi perspektivləri nəzərə alınmaqla “Azərqızıl” Dövlət Şirkətinin yaradılması mümkün oldu.

Ə. Şəkinskinin geoloji-kəşfiyyat istehsalına rəhbərliyi dövründə onlarla müxtəlif növ qeyri-filiz xammalı və inşaat materialı yataqları kəşf edilərək müəyyən edilmiş qaydada sənaye istifadəsinə təhvil verilmişdir. Bu müddət ərzində respublika iqtisadiyyatının bir çox sahələrinin davamlı inkişafını təmin etmək iqtidarına malik zəngin mineral-xammal bazası yaradılmışdır. Kəşf olunaraq sənaye ehtiyatları təsdiq edilmiş yataqların bazasında çoxsaylı inşaat materialı istehsalı kombinatları, tikinti daşı, bentonit gili, alüminium oksidi istehsalı üçün mexanikləşdirilmiş xammal karxanaları, Yeni Neftçala və Bakı Yod zavodları və texnoloji proseslərində mineral-xammal ehtiyatlarından istifadəyə əsaslanan bir çox müəssisə fəaliyyət göstərirdi.

Bakı şəhəri və ümumiyyətlə respublika əhalisinin sosial, ekoloji və digər bu kimi problemlərinin həlli ilə bağlı məsələlər həmişə Əkrəm Şəkinskinin diqqət mərkəzində olmuşdur. Buraya, ilk növbədə, yüksəkkeyfiyyətli yeraltı şirin və müalicəvi mineral su ehtiyatlarının aşkar edilməsi, Bakı şəhərinin su təminatının əsaslandırılması, iqtisadiyyat üçün daim təhlükə mənbəyi olan ekzogen geoloji proseslərin - sürüşmələr, torpaq eroziyası və s. aşkarlanaraq öyrənilməsi, binaların zirzəmilərində subasma ilə mübarizəyə dair təkliflərin verilməsi, ölkə paytaxtının sanitar-ekoloji şəraitinin yaxşılaşdırılması və başqa bu kimi məsələlər aid idi.

Əkrəm müəllimin rəhbərliyi altında kəşf edilərək təsdiq edilmiş sutkada 14 milyon kubmetrdən artıq yeraltı şirin su ehtiyatları ölkə əhalisinin içməli və təsərrüfat təyinatlı suya olan tələbatını tamamilə ödəməklə yanaşı, eləcə də böyük həcmlərdə suvarma işlərində də istifadə olunur.

Bakı şəhərinin keyfiyyətli içməli su ilə təminatına da Ə.Şəkinski məxsusi diqqətlə yanaşırdı. Onun rəhbərliyi dövründə Yalama-Xaçmaz bölgəsinin kəşf olunaraq təsdiq edilmiş yeraltı su ehtiyatları bazasında o zaman inşası planlaşdırılan saniyədə 6 kubmetr məhsuldarlığa malik III Bakı su kəməri fəaliyyətdə olan I və II Bakı su kəmərlərinin gücünü iki dəfə üstələmək iqtidarında idi.

Bununla yanaşı, Şəki-Qəbələ bölgəsinin miqdarı saniyədə 15 kubmetr təşkil edən kəşf olunmuş yeraltı su ehtiyatları hesabına Bakı şəhəri və Abşeron yarımadasının əlavə su təminatının alternativ variantı da yaradılmışdır.

Ə.Şəkinskinin rəhbərlik fəaliyyətinin mühüm sferalarından biri də Bakının ekoloji şəraitinin yaxşılaşdırılması olub. Qanlı gölün ətraf mühitə, ilk növbədə, metropoliten xəttinə və Yasamal qəbiristanlığına zərərli təsiri öyrənilmiş, onun ləğvi variantları təklif edilmişdi. Bu təklif də öz müsbət həllini tapmışdı.

Onun təşəbbüsü və bilavasitə rəhbərliyi altında 1988-1989-cu illər ərzində Bakı, Sumqayıt şəhərləri və Abşeron yarımadası ərazilərinin radioaktiv çirklənməsinin vəziyyəti öyrənilmişdir. Nəticə etibarilə fon göstəricilərini on dəfələrlə üstələyən 100-ə yaxın radioaktiv çirklənmə mənbələri aşkar olunaraq müəyyən qaydada ləğv edilmişdir.

Ə.Şəkinski bir sıra dövlət və hökumət komissiyalarının üzvü idi.

Sovet İttifaqı nümayəndə heyətinin tərkibində o, 1989-cu ildə ABŞ-ın Vaşinqton şəhərində keçirilmiş XXVIII Ümumdünya Geoloji Konqresin işində fəal iştirak etmişdi.

Əkrəm müəllim X və XI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı kimi respublika rayonlarının, ilk növbədə, Şəki rayonunun iqtisadi və sosial inkişafı naminə mövcud imkanlarını, bilik və bacarığını əsirgəməmişdi.

Özünə və həmkarlarına qarşı həmişə yüksək tələbkarlığı və həssaslığı ilə seçilən, bütün fəaliyyəti boyu dövlətin milli maraqlarını üstün tutan Ə.Şəkinskinin elmi-istehsalat və ictimai fəaliyyəti yüksək dövlət mükafatlarına layiq görülmüşdür. O, “Qırmızı Əmək Bayrağı” və “Şərəf Nişanı” ordenləri və iki medalla, respublika Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdi.

Çoxillik məhsuldar işinə, ölkə iqtisadiyyatının mineral-xammal bazasının inkişafındakı xidmətlərinə görə “Azərbaycan SSR-in Əməkdar geoloqu” və “SSRİ Yer təkinin Fəxri kəşfiyyatçısı” fəxri adlarını almışdı.

Müxtəlif faydalı qazıntı yataqlarının aşkar olunması, onların kəşfiyyatı və ehtiyatlarının təsdiq edilməsindəki xidmətlərinə görə Ə.Şəkinski SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iki qızıl və iki bürünc medalını almışdı.

O, iki dəfə - Kürsəngi neft-qaz yatağının aşkar olunması və kəşfiyyatına, Binə-Hövsan və Neftçala yodlu-bromlu su yataqlarının aşkar edilməsinə, kəşfiyyatına və sənaye mənimsənilməsi üçün təhvil verilməsinə görə “Yatağın ilk açanı” diplomu və fəxri nişanına layiq görülmüşdü.

Amansız ölüm onu iş başında - qardaş Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində xidməti ezamiyyətdə ikən haqlamışdı. Əkrəm Şəkinski 1998-ci il iyun ayının 25-də həyatla əbədi olaraq vidalaşdı. O, Bakıda Fəxri xiyabanda dəfn edilmişdir.

Şüurlu həyatını bütövlükdə Vətənə və xalqına sədaqətli xidmətə həsr etmiş qayğıkeş ailə başçısı, tələbkar və həssas rəhbər Əkrəm Məmməd-Emin oğlu Şəkinskinin əziz xatirəsi onu tanıyanların, həmkarlarının və doğmalarının qəlbində həmişə yaşayır!

***Akif QULİYEV,***
***mühəndis-geoloq, elm və texnika sahəsində SSRİ Nazirlər Soveti mükafatı laureatı***

## 16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür

# Bütün dinlərin harmoniyası Azərbaycandadır

Bu gün tolerantlıq günüdür...
Deməli, həm də azərbaycançılıq günüdür...
Əbəs deyil ki, bu gün dünyada baş verən dini qarşıdurmalar, din adı altında həyata keçirilən terrorlar, irqi, milli, dini ayrı-seçkilik, dözümsüzlük fonunda Azərbaycanda minillərdir var olan tolerantlıq bütün bəşəriyyətə nümunə göstərilir, həm də ən mötəbər tribunalardan, ən ali dini rəhbərlər səviyyəsində...

“Azərbaycanda keçirilən dinlərarası görüşləri xatırlamaq istəyirəm. Burada dinlərin yarada biləcəyi harmoniyanı hiss etdim. Yalnız bir yol var - hər kəsə görə dua etmək və hər kəslə ünsiyyət qurmaq, mili nizəyə çevirmək, nifrət edildiyin zaman sevmək, təhqir edildiyin zaman bağışlamaq, dünya ilə harmoniyada yaşamaq...”

Bu fikirləri ötən il Roma papası Fransisk Vatikanda Qafqaz dağ yəhudilərindən ibarət nümayəndə heyətini qəbul etdiyi zaman səsləndirmişdi...

Bəşəriyyətə örnək milli-mənəvi dəyərlərimizin özəlliyi, unikallığı ondadır ki, əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayıblar. Bunu ölkəmizdə mövcud olan və müxtəlif inanclara məxsus tarixi, dini abidələr əyani sübut edir. Məsələn, tarixdə ilk din olan Zərdüştlüyün qədim atəşpərəstlik məbədi Bakıda, Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi Şəki yaxınlığında və müsəlman aləminin ən qədim ibadətgahlarından biri olan, 743-cü ildə tikilmiş məscid Şamaxıda yerləşir. Bunlar Azərbaycanın bütün dinlərin, inancların qovuşduğu bir məkan olmasına əyani nümunədir.

### Azərbaycan artıq tolerantlıqdan multikulturalizm səviyyəsinə qalxıb

Hazırda ölkəmizdə 2250 məscid, 14 kilsə, 7 sinaqoq, 942 dini qurum, 748 ziyarətgah fəaliyyət göstərir. Ölkədə xristian pravoslav kilsəsinin fəaliyyətinin bərpası, Bakıda katolik kilsəsinin inşa olunması Azərbaycandakı dini müxtəlifliyin və bu fərqliliyə insanların tolerant münasibətinin bariz nümunəsidir.

Bu bir faktdır ki, Azərbaycanda var olmuş və indi də bu ali dəyərləri özündə ehtiva edən dini mənzərə dünyanın başqa heç bir ölkəsində yoxdur. Bunu illərdir Azərbaycanda yaşayan xalqların, etnik qrupların, dini icmaların nümayəndələri də vurğulayırlar.

Dini həyatın əsası tolerantlıqdır, amma Azərbaycan artıq tolerantlıqdan multikulturalizm səviyyəsinə qalxıb. Dini dözümlülük, insanların inanclarına humanist yanaşma xalqımızın təbiətinə xas insanpərvərliyindən, xoş məramından irəli gəlir. Və bu dəyərli ənənə nəsillərdən nəsillərə ötürülərək bu gün də mənəvi sərvət kimi qorunub saxlanır. İnsanlar mənsub olduqları dinə aid ayinləri məscidlərlə yanaşı, fəaliyyət göstərən sinaqoq və kilsələrdə də sərbəst şəkildə icra edirlər. Müqəddəs bayramlarını digər dinlərin nümayəndələri ilə birlikdə qeyd edirlər, toy, yas mərasimlərində qaynayıb-qarışır, bir-birinə dayaq dururlar...

Vətənimiz Azərbaycanın keşiyini birlikdə çəkirlər...

### Məscidlər, kilsələr, sinaqoqlar...

Azərbaycanda tarixən bərqərar olmuş tolerant cəmiyyət, multikultural dəyərlər, milli və dini ayrı-seçkiliyə yol verilməməsi burada məskunlaşmış yəhudilərə də öz varlığını qoruyub saxlamağa əlverişli imkan yaradıb. Quba İsraildən kənarda yəhudilərin ən sıx məskunlaşdığı şəhərdir. Buradakı Qırmızı Qəsəbə adlanan yaşayış məskəni isə bütün postsovet məkanında dağ yəhudilərinin yığcam yaşadıqları yeganə məkandır.

Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir ki, təkcə bu faktın özü Azərbaycanda tolerantlıq ənənələrinin hansı səviyyədə olduğunu təsdiqləyir.

Ölkəmizdə dövlət qayğısı ilə əhatə olunan azsaylı qədim xalqlardan biri də Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilərdir. Dünyada udilərin sayı 10000-ə yaxındır ki, onların da təqribən 7000-i Azərbaycandadır. Əsrlər boyu azərbaycanlılarla udilər dinc şəraitdə yanaşı yaşamış, onların arasında daim dostluq əlaqələri və qarşılıqlı anlaşma mövcud olmuşdur. Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı sayəsində 2003-cü ildə Qafqazın ən qədim kilsələrindən olan Şəki rayonundakı Kiş məbədi, 2006-cı ildə isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən 3 xristian məbədindən biri - Müqəddəs Yelisey adına Çotari kilsəsi bərpa edilib.

Ölkəmizdə tatlar, talışlar, kürdlər, malakanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər kimi bir çox etnik qruplar da yaşayır. Onlar özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlayır.

### Azərbaycanın multikulturalizm və tolerantlıq kimi bəşəri dəyərlərə münasibəti yüksəkdir

Azərbaycanın multikulturalizm, tolerantlıq kimi bəşəri dəyərlərə münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə də praktik müstəvidə özünü göstərir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və əzmkar fəaliyyəti nəticəsində tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən ölkəmizin Şərqlə Qərb arasında körpü rolu oynaması daha böyük aktuallıq kəsb etmişdir. Heydər Əliyev Fondunun bütün dinlərə xüsusi diqqət göstərməsi, Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirakı dünya ictimaiyyətinə Azərbaycanın dəyərli töhfəsi kimi qiymətləndirilir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi irimiqyaslı layihələrdən olan Romada Müqəddəs Marçellinio və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpası xristian dünyasında böyük əks-səda doğurub.

Bu gün ölkəmizdə yürüdülən dövlət siyasətinin başlıca məqsədi insanların sülh şəraitində yaşamasını təmin etmək üçün tolerantlıq, multikultural dəyərlərin təbliğ edilməsidir. Bu yönümdə atılan addımlar isə nəinki Azərbaycana və ölkəmizdəki dini konfessiyalara, bütünlüklə müsəlman aləmi ilə digər inanclar arasında münasibətlərə, eyni zamanda, bütün dünyada gedən proseslərə təsir göstərəcək əhəmiyyətli məsələlərdir.

### Sülhün, dostluğun, birgəyaşayışın dünyaya ixrac edilməsi

Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” və 2017- ci ili “İslam həmrəyliyi ili” elan etməsi ölkədə əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərin, sülhün, dostluğun, birgə yaşayışın dünyaya ixrac edilməsinə öz mühüm töhfəsini verdi.

Prezidentin islam həmrəyliyinə çağırışı bütün islam dünyasında xalqların və ölkələrin iqtisadi, mədəni, elmi əməkdaşlığına, eyni zamanda, islam dininin irəli sürdüyü bərabərlik, ədalət, mənəviyyat, insanpərvərlik və sülh ideyalarının daha da diqqət mərkəzinə çəkilməsinə xidmət etdi. Bu mühüm beynəlxalq tədbirlər bir daha dünyaya göstərdi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, eyni səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan nəinki ölkə daxilində etnoslararası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyir, həm də dünyaya tolerantlıq və multikulturalizmin mütərəqqi modelini təqdim edir.

Bütün bunlarla yanaşı, hər il Azərbaycanda dini qurumlara dövlət tərəfindən mütəmadi olaraq maliyyə yardımı da göstərilir. Bu il də Prezidentin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna və Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat ayrılıb. Həmçinin Avropa yəhudilərinin Bakı dini icmasına, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna, Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasının hər birinə 150 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100 min manat ayrılıb.

*Bəli, dini dözümlülük azərbaycançılığın təməl kodudur...*

*Tolerantlıq Azərbaycan xalqının əslindədir, kökündədir, genindədir...*

*Bu müdrik xalq ona düşmənçilik edənlərə qarşı da həmişə tolerant yanaşır. İşğal olunan torpaqlarımızdakı dini ocaqların, məscidlərin, məzarlıqların dağıdılmasına baxmayaraq, bu gün də Bakının mərkəzində ermənilərin dini məbədi, məzarlıqları qorunub saxlanılır, onlara qarşı heç bir hörmətsizlik edilmir...*

*Tolerantlığın bu cür fövqəlbəşər nümunəsinə dünyanın heç bir yerində rast gəlmək mümkün deyil...*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Təbiətin payız sehri



Foto Fərman BAĞIROVUNDUR

# Erməni deputatlar Vaşinqtonda sual atəşinə tutulublar

Noyabrın 14-də Vaşinqtondakı Alman Marşal Fondunda keçirilən və ABŞ-da səfərdə olan Ermənistan parlamenti spikerinin müavini Vahe Enfiajyanın, Lilit Makuntsun (Paşinyanın "Mənim addımım" alyansının rəhbəri), Edmon Marukyanın və Tatevik Hayrapetyanın çıxış etdikləri "Ermənistanda məxməri inqilabın vədləri: demokratik islahatların irəli aparılması və ABŞ ilə strateji əməkdaşlığın gücləndirilməsi" adlı tədbir erməni parlamentarilər üçün uğursuzluqla nəticələnib. Ermənistanın yeni hökumətinin təbliğinə yönələn bu tədbirə bir neçə həftə hazırlıq görülsə də, iclasa cəmi 13-14 nəfər qatılıb. Bu, bir daha Ermənistanın "islahat" iddialarına ABŞ tərəfindən skeptik yanaşmanı nümayiş etdirir. Bununla yanaşı, Türkiyə Prezidentinin ABŞ-a səfəri erməni deputatlarının bu səfərini kölgədə qoyub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən erməni deputatlar iddia olunan "demokratik islahatlar"ın mahiyyəti məsələsinə aydınlıq gətirməyib, iqtisadiyyatın gücləndirilməsi və Ermənistan əhalisinin rifahının yaxşılaşdırılması istiqamətində Paşinyan hakimiyyətinin hansı işlər gördüyü barədə suallara cavab verməyiblər. Erməni parlamentarilər "məxməri inqilab" adlandırdıqları prosesin xarici siyasətdə dəyişikliyə səbəb olmayacağı barədə tezisi təkrarlayıblar. Onlar ABŞ-la strateji dialoqa başladıqlarını qeyd etsələr də, bu dialoqun hansı məzmuna malik olduğu ilə bağlı sualın cavablandırılmasında çətinlik çəkiblər.

"Ermənistanın sülh səylərinə sadiq olduğu" və "Ermənistan və Azərbaycan ilə yanaşı, "Dağlıq Qarabağ əhalisi"nə sərf edən həll yolunun tapılmasına çağırış"a dair Paşinyan hakimiyyətinin mövqeyini təkrarlanması qarşılığında Azərbaycan diplomatı tərəfindən verilən sual erməni parlamentarilər arasında çaşqınlıq yaradıb. Belə ki, onlar Azərbaycanın işğal olunmuş ərazilərindən 750 mindən çox əhalinin qovulması, eləcə də məcburi köçkünlərin geri qayıtmaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bölgənin gələcək statusunun müəyyənləşdirilməsi barədə münaqişənin həlli mexanizmi kontekstində "Dağlıq Qarabağ əhalisi" anlamının hansı mənanı ifadə etməsi, habelə bir qonşu ölkənin ərazisinin işğalının, digərinə (Türkiyə) qarşı isə ərazi iddialarının Ermənistanın "demokratik və islahatçı" siyasətinə nə dərəcədə uyğun gəlməsi ilə bağlı suallarına cavab verə bilməyiblər.

Bununla yanaşı, tədbirdə Ermənistanın ABŞ-ın maliyyə dəstəyi ilə tikdiyi bioloji laboratoriyalara Rusiyanın girişinə icazə verməsinin ABŞ tərəfinə necə izah olunduğu və Ermənistanda Rusiya bazasının saxlanmasının hansı məqsədlərə xidmət etdiyi ilə bağlı Azərbaycan əsilli jurnalist Rafiq Qurbanzadə tərəfindən verilən suallar erməni deputatların narahatlığına səbəb olub. Bundan əlavə, erməni parlamentarilər digər iştirakçıların Ermənistanda məhkəmə islahatlarının müddəti, Suriyaya missiya göndərməsinin səbəbləri, ABŞ ilə əməkdaşlığın məzmununun nədən ibarət olduğu barədə suallarına olduqca səthi cavablar verməklə kifayətləniblər.

Beləliklə, erməni parlamentarilərin çıxışları Ermənistanda iddia edilən "islahatlar"la bağlı məlumat kasadlığı ilə yanaşı, ünvanlanan suallara əsassız və səthi cavab verməlri ilə yadda qalıb.

# Beynəlxalq aləm

## Fransa polisi zavodu mühasirəyə alan "sarı jilet"ləri dağıtdı



Fransa polisi ölkənin qərbində yerləşən "Yara" gübrə istehsalı şirkətinin zavodunu mühasirəyə almış "sarı jilet"li nümayişçiləri dağıdarkən gözyaşardıcı qazdan istifadə etmişdir. Bu barədə "France Bleu" radiostansiyası xəbər verir.

Dünən səhər Montuar-de-Bretan şəhərinin yaxınlığında yerləşən müəssisənin qarşısına yüzlərlə adam toplaşmışdı. Piket iştirakçıları yolda tonqal yandırmış və canlı sipər yaradaraq yük maşınlarının hərəkətinə maneçilik törətmişlər. Bir neçə saatdan sonra hadisə yerinə gələn polisin xüsusi təyinatlıları tezliklə nümayişçiləri sıxışdırmışlar. Asayiş keşikçiləri bir neçə dəfə gözyaşardıcı qazdan istifadə etmişlər.

"Yara" zavodunda insan üçün təhlükəli maddələr mövcuddur. Son bir həftə ərzində yerli KİV Luara çayına böyük miqdarda fosfor və digər kimyəvi maddələrin atıldığı barədə xəbər vermişdir. Prokurorluq ötən ildən bəri bu faktları araşdırmaq üçün yoxlama aparır. Lakin təhqiqatın nəticələri hələ də ictimaiyyətə açıqlanmamışdır.

## Venesiyada fövqəladə vəziyyət elan olundu



İtaliya hökuməti Venesiyada görünməmiş daşqın üzündən fövqəladə vəziyyət rejimi tətbiq etmişdir. Bu barədə Baş Nazir Cüzeppe Konte məlumat vermişdir.

Hökumətin başçısı qeyd etmişdir ki, şəhərin və onun sakinlərinin əsas ehtiyaclarını qarşılamaq üçün 20 milyon avro ayrılmışdır. O əlavə etmişdir ki, şəhərə dəymiş ziyanı hesablamaq hələ mümkün deyil.

Venesiyada suyun səviyyəsi normadan 187 santimetr yuxarı qalxmışdır. Analoji hal yalnız 1966-cı ildə olmuşdur.

Daşqın zamanı şəhərin ən görməli yerlərindən birini - San-Marko meydanını, habelə Müqəddəs Mark kilsəsinin zirzəmisini su basmışdır.

Konte vəd vermişdir ki, 2021-ci ildə Mose sisteminin yaradılması başa çatacaq və bununla Venesiya daşqından müdafiə olunacaq.

## 119 arakanlı qaçqın xilas edildi



Banqladeş sahil mühafizəsi xidmətinin katerləri Myanmanın Arakan ştatından olan və Malayziyaya gedən 119 qaçqını xilas etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Sahil mühafizəsi Benqal körfəzindəki Sen-Marten adası sahillərinin yaxınlığında myanmalı qaçqınların fəlakətlə üzləşmiş qayığını aşkar etmişdir. Qayıqdakı 119 qaçqın arasında 58 qadın və 14 uşaq olmuşdur.

Banqladeşdəki Koks-Bazar düşərgəsində məskunlaşmış arakanlı qaçqınlar tez-tez Malayziya ərazisinə keçməyə cəhd edirlər. Sahil mühafizəsi son bir il ərzində 500-dən çox qaçqını saxlamışdır.

## Kaliforniya məktəbində iki uşaq öldürüldü



ABŞ-ın Kaliforniya ştatının Santa-Klarita şəhər məktəbində 16 yaşlı yeniyetmə özünün ad günündə atəş açmışdır. Bu barədə Los-Anceles polisinə istinadən CNN telekanalı xəbər verir.

Atəş nəticəsində 16 yaşlı qız və 14 yaşlı oğlan həlak olmuşlar. Üç nəfər güllə yarası ilə xəstəxanaya çatdırılmışdır.

Yeniyetmə qurbanlarını güllələdikdən sonra intihar etməyə cəhd göstərmişdir. Hazırda o, ağır vəziyyətdə xəstəxanada müalicə olunur.

## İdlibə 100-dən çox aviasiya zərbəsi endirilib



Son iki gündə Suriyanın İdlib əyalətində gərginliyin azaldılması zonasına 100-dən çox aviasiya zərbəsi endirilmişdir. Bu barədə BMT Təhlükəsizlik Şurasının iclasında beynəlxalq təşkilatın baş katibinin humanitar məsələlər üzrə müavini Mark Loukok məlumat vermişdir.

Loukokun dediyinə görə, zonanın cənub və qərb hissələrinin havadan zərbələrə və artilleriya atəşinə məruz qalması nəticəsində xeyli dinc sakin həlak olmuş və yaralanmışdır. Dörd tibbi müəssisəyə zərər dəymişdir. O əlavə etmişdir ki, Suriyanın dinc sakinləri həm də "Şam azadlıq təşkilatı" terrorçu təşkilatı silahlılarının təzyiqinə məruz qalırlar.

Sonra diqqəti Suriyanın şimal-şərqində yaranmış vəziyyətə cəlb edən Loukok bildirmişdir ki, Türkiyənin ABŞ və Rusiya ilə razılaşmalarından sonra ölkənin bu hissəsində gərginliyin səviyyəsi azalmışdır. Eyni zamanda Rəəs əl-Eyn və Təl-Abyad rayonlarında toqquşmalar baş verir.

BMT nümayəndəsinin dediyinə görə, dinc sakinlərin böyük bir hissəsi, təxminən 200 min nəfər ev-eşiyinə qayıtmağa başlayır. Türkiyə humanitar əməliyyatlara dəstək vermiş, su və elektrik təchizatı sistemini bərpa etmişdir.




# Qusar və Qubanın görməli yerlərini gəziblər

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində 400-dən çox məktəbli Azərbaycanın şimal qapısı sayılan Qusar və qədim Quba ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, noyabrın 15-də Gəncə, Şirvan, Şuşa, Laçın, Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Qusar rayonunun görməli yerlərini gəziblər.

Məktəblilər Qusar şəhərinin girişindəki Bayraq Meydanında qarşılanıblar. Onlara rayon haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Qusar rayonu təkcə təbii gözəllikləri ilə deyil, həm də qədim mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə də məşhurdur. Yayda göz oxşayan meşələr, qışda qara bürünmüş dağ və dərələr buraya gələnlərin diqqətini çəkir.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzi ilə tanış olublar. Məktəblilərə buradakı hotellər və müxtəlif xidmətlər barədə ətraflı məlumatlar verilib. Tur-aksiya iştirakçıları mərkəzin xidmətlərindən pulsuz yararlanmaq imkanı qazanıblar.

Məktəblilər günün ikinci yarısında Həzrə kəndində Şeyx Cüneyd türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin irsini və çoxşaxəli fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyinə, Olimpiya İdman Kompleksinə və rəsm qalereyasına ekskursiya ediblər.

Sumqayıt, Mingəçevir, Yevlax, Naftalan, Kəlbəcər və Xocalı məktəblərinin şagirdləri isə Qubanın görməli yerlərini gəziblər.

Qədim Qubaya ekskursiya dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başlayıb. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzib, Qudyalçayın üzərindəki Tağlı körpü ilə tanış olublar.

Qəsəbədəki sinaqoqla tanışlıq zamanı şagirdlərin diqqətinə çatdırılıb ki, uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dağ yəhudilərinin Quba ərazisində yığcam şəkildə məskunlaşmasının tarixi XVIII əsrin ortalarına təsadüf edir. Quba xanlığına Fətəli xanın rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər buraya köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub.

Zəngin memarlıq üslubuna malik Cümə məscidi ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, məbəd 1802-ci ildə tikilib. Bu məscid təkcə Qubada deyil, şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.

Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Azərxalça" ASC-nin Quba filialında xalça toxunması prosesini də izləyiblər.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı tur-aksiyanın iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Daha sonra məktəblilər Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Quba şəhərindəki "ABAD Factory" İstehsalat Kompleksi ilə yaxından tanış olublar.

Günün ikinci yarısında məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərindəki dağ şəlaləsinə ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları, həmçinin "Quba Palace" mehmanxana kompleksində və buradakı qolf klubunda da olublar.

# DSX: "Sərhədboyu ərazilərdə gizlədilmiş odlu silahlar aşkarlanaraq götürülüb"

Dövlət Sərhəd Xidmətinin (DSX) sərhədlərimizin etibarlı mühafizəsi və dövlət sərhədində rejim qaydalarına riayət olunması istiqamətində həyata keçirdiyi əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində sərhədboyu ərazilərdə gizlədilmiş odlu silahlar aşkarlanıb.





Noyabrın 12-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində Ağstafa rayonunun Sadıxlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində yerləşən "Qarayazı" Dövlət Meşə Qoruğunda kolların arasında gizlədilmiş 20 millimetrlik ov tüfəngi, ona məxsus 9 patron aşkarlanıb. "Şəki" sərhəd dəstəsinin xidməti ərazisində Oğuz rayonunun Filfilli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Qalaçay çayının sahilində qaya daşlarının altında gizlədilmiş istifadəyə yararlı 1960-cı il istehsalı olan "TOZ-8" markalı yivli silah aşkar edilərək götürülüb. Faktlar üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*"Azərbaycan"*

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Xocavənd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və Respublika Komitəsinin aparat işçiləri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kürdəmir Rayon Məhkəməsinin kollektivi Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Milli Məclis Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri İbrahim Yusifzadə və əməkdaşları Emil Tağıyev, Rüfət Məmmədov, Cavid İskəndərov, Samir Ələkbərov, Anar Vəliyev, Rauf Əliyev, Fuad Piriyev, Səid Müslümov və Sənəm Xəlilova Milli Məclisin Maliyyə şöbəsinin müdiri Rəna Qurbanovaya anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin I mamalıq və ginekologiya kafedrasının kollektivi Tamilla Axundovaya həyat yoldaşı

**RASİM ƏNVƏR OĞLU MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8909
Sifariş 3826
Qiyməti 40 qəpik